**AZƏRBAYCAN DÖVLƏT XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI**

# *AZƏRBAYCAN TARİXİ*

(Qiyabi təhsil alan tələbələr üçün dərs vəsaiti

mühazirə və icmal mövzuları əsasında)

*Kitab Azərbaycan Dövlət Dəniz Akademiyası "Humanitar fənlər" kafedrasının 22 aprel 2009-cu il tarixli 8 saylı və Azərbaycan Dövlət Dəniz Akademiyası Elmi-metodik Şurasının ______il tarixli _______ saylı qərarlarına əsasən çapa məsləhət görülmüşdür.*

**B A K I - 2 0 0 9**

*Tərtib edənlər:* dos. **R.ÇƏLİLOĞLU,**
b\m **Ə.M.SÜLEYMANOV**

*Redaktor:* Tarix elmləri doktoru,
professor **A.BAXŞƏLİYEV**

*Rəycilər:* AMEA-nın baş elmi işcisi,
tarix elmləri namizədi **A.Ç.MURADOVA,**

dosent **H. A. ALIYEV,**

*baş müəllim* **N. İ. AVRAMENKO**

**R.Cəliloğlu, Ə.Süleymanov. Azərbaycan tarixi. Dərs vəsaiti. ADDA. Bakı-2010. 102 səh. Şəkilli.**

Bu vəsaitdə Azərbaycanımızın dünəni, bu günü – Tarixi Torpaqlarımızın, ərazi tamlığımızın hazırkı vəziyyəti haqda yazılmışdır.

Vəsait Azərbaycan Dövlət Dəniz Akademiyasının (ADDA) *tələbələri üçün nəzərdə tutulsa da, bundan hamı bəhrələnə bilər.*

Olduqca lakonik, yığcam şəkildə hazırlanmış bu kitab əsrlər boyu parçalanan və günü bu gün də düşmən tapdağı altda qalan, öz soydaşlarını səbrsizliklə gözləyən ULU YURDUMUZUN ***hıçqırığını*** bir daha hamımıza **eşitdirmək** üçün qələmə alınmışdır!

**©. R.Cəliloğlu, Ə.Süleymanov - 2010**
**©. ADDA - 2010**

# GİRİŞ ƏVƏZİ

«Azərbaycan» sözü ərazi - coğrafi anlayışdır. Bu dünyanın ən qədim məskənləindən birinin adıdır. Bu ərazi şimaldan Dərbənd, cənubda Zəncan və Qəzvin daxil olmaqla Həmədana qədər, qərbdə Urmiya, Göyçə gölləri və İrəvan daxil olmaqla, Tiflisdən başlayıb, Şərqdə Xəzər dənizinin dərinliyinə qədər, uzanıb gedən bir sahəni əhatə edir. Beləliklə, dünya üzrə Azərbaycanının əhalisi 50 milyondan artıqdır. Bütün bunları daha da dəqiqləşdirmək üçün aşağıda qeyd edilənlərə diqqət yetirək.

Azərbaycan Respublikası hal-hazırda bu ərazinin cəmi 86,6 min kv. km-ə (hazırda ərazinin 20 %-i ermənilər tərəfindən işğal olunub) nəzarət edir. Qalan ərazinin ən cox hissəsini təşkil edən Cənubi Azərbaycan İranın, Şimali Azərbaycanın 50 min kv.km-ə qədəri Ermənistanın, Dərbənd isə Rusiyanın, Borçalı Gürcüstanın tərkibindədir. Gənc nəsil bunu unutmamalıdır. Bunları heç zaman unutmaq olmaz. Bunları bir daha xatırlamaq yerinə düşər.

1813-1828-ci illərə qədər Azərbaycanın sahəsi təx. 410 min kv.km idi. 1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: İran əsarəti altındakı Cənubi Azərbaycanın sahəsi təx. 280 min kv.km, Rusiya əsarəti altındakı Şimali Azərbaycanın sahəsi təx. 130 min kv.km, 1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş İrəvan xanlığı – sahəsi 9 min kv.km, Rusiya əsarəti altında olan Dərbənd xanlığı – sahəsi 7 min kv.km-dir.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulduğu ərazinin sahəsi təx. 114 min kv.km idi.

1920-ci ildə ADR-ı işğal edən Rus Sovet İmperiyasının bölüşdürdüyü Azərbaycan əraziləri:

Ermənistan SSR-nin qismən nəzarətinə verilən Zəngəzur, Göycə, Şərur, Dərələyəz, Dilican və Gürcüstan SSR-nin qismən nəzarətinə verilən Borçalı ilə birlikdə sahəsi təx. 27,4 min kv.km 1920-1991-ci illərdə SSRİ əsarəti altında qalmış Azərbaycan SSR-nin ərazisi 86,6 min.kv.km. idi.

Azərbaycanın 1988-1994-cü illərdə işğal olunmuş əraziləri 13,21 min kv.km idi.

Dağlıq Qarabag - (Şuşa, Xankəndi, Xocalı, Əskəran, Xocavənd, Ağdərə) - İşğal tarixi – 1988 -1994-cü illər Sahəsi – 4400 kv.km.

Laçın - İşğal tarixi - 17 may 1992-ci il Sahəsi – 1835 kv.km

Kəlbəcər - İşğal tarixi - 3-6 aprel 1993-cü il Sahəsi - 1936 kv.km

Ağdam - İşğal tarixi - 23 iyul 1993-cü il Sahəsi - 1094 kv.km

Cəbrayıl - İşğal tarixi - 18 avqust 1993-cü il Sahəsi - 1050 kv.km

Füzuli - İşğal tarixi - 23 avqust 1993-cü il Sahəsi - 1386 kv.km

Qubadlı - İşğal tarixi - 31 avqust 1993-cü il Sahəsi - 802 kv.km

Zəngilan - İşğal tarixi - 30 oktyabr 1993-cü il Sahəsi - 707 kv.km

Azərbaycanın xalq şairi, görkəmli ictimai xadim Bəxtiyar Vahabzadə bununla əlaqədar olaraq özünün şeirlərinin birində yazırdı:

* * *

***Ağalar bilmədi birdir bu torpaq***

***Təbriz də Bakı da Azərbaycandır***

***Bir elin ruhunu, dilini ancaq***

***Kağızlar üstündə bölmək asandır***

Beləliklə, dünyada elə bir xalq yoxdur ki, torpağı bu qədər parçalanmış olsun. Tarix haqqında söhbət açarkən qeyd etməliyik ki, «Tarix» insan cəmiyyətinin keçmişini öyrənən elmdir. «Tarix» ərəb sözüdür «tədqiqat» və hadisələr haqqında hekayət deməkdir. Azərbaycan tarixi xalqımızın ən qədim dövrlərindən başlayaraq müasir dövrədək keçdiyi tarixi öyrənir. «Azərbaycan tarixi» bizə öyrədir ki, hələ çox-çox qədimlərdə bu tarix ərzində məskunlaşmış əcdadlarımız «insan sürüsü» halından–müasir sivilizasiyalı cəmiyyət səviyyəsinə qədər tarixi keçdiyi 1,5 milyon il olan bir yol keçmişdir. Bu müddət ərzində xalqımız artıq dövlətçilik quruculuğu tarixinə 52-yə qədər müstəqil dövlət vermişdir. Azərbaycan Xalq Cümhuriyyəti və onun varisi olan müstəqil Azərbaycan Respublikası onların zirvəsini təşkil edir.

Azərbaycan tarixi bizə xalqımızın keçdiyi uzun və çətin, lakin şanlı və şərəfli həyat yolunu öyrədir.

Qeyd etməliyik ki, Azərbaycan sözü ilə bağlı «Odlar yurdu», «Odlar ölkəsi» adları da tariximizə, ədəbiyyatımıza daxil olmuş və inkişaf etmişdir. Azərbaycan sözü kimi «Odlar yurdu», «Odlar ölkəsi» adlarının da qədim tarixi vardır. Bu qədimdən ərazimizdə mövcud olan təbii qazlarla, yanan əbədi odlarla, atəşpərəstliklə əlaqədardır.

Qiyabiçi tələbələrə Azərbaycan tarixi kursundan aşağıdakı mövzuların tədrisini tövsiyə edirik.

## I MÖVZU: AZƏRBAYCANDA GƏMİÇİLİYİN VƏ DƏNİZÇİLİK TƏHSİLİNİN MEYDANA GƏLMƏSİ VƏ YARANMASI

Mövzu ilə bağlı aşağıda qeyd edilən məsələlərə diqqət yetirmək tövsiyə olunur: Gəmiçiliyin yaranması, ilk yelkənli qayıqların meydana gəlməsi, Qobustanda piktoqrafik yazılar (e.ə.VII minillik), Gəmiçiliyin təkamülü, Gəmiçilik texnikasının təkmilləşməsi, Gəmilərin növləri.

Tarixin atası Heradot (e.ə. V əsr) Xəzər dənizini heç bir yerlə əlaqəsi olmayan böyük göl adlandırmışdır. Onun ətrafında albanlar və kadusilər yaşamışlar. XVII, XIII və XIX əsrlərdə Gəmiçiliyin inkişafı və s.

XIX əsrin II yarısı XX əsrin əvvəllərində Rusiyada kapitalizmin inkişafı Azərbaycanın iqtisadi inkişafına da müsbət təsir göstərdi. Bu dövrdə müstəmləkəçilik siyasəti yeridən Rusiya Xəzər dənizində Gəmiçiliyin inkişafına xüsusi diqqət yetirirdi.

Rusiya Senatının 21 May 1858-ci il tarixli fərmanı ilə «Qafqaz və Merkuri» gəmiçilik səhmdar cəmiyyətinin yaradılması Xəzər dənizində, gəmiçiliyin inkişafı tarixində yeni mərhələnin başlanğıcını qoydu.

1859-cu ilin dekabrında cəmiyyətin Xəzər şöbəsi Bakıya köçürüldü. Bakı şəhəri Xəzər Dəniz nəqliyyat təsərrüfatının mərkəzinə çevrildi.

XIX əsrin 70-ci illərindən başlayaraq dünyada ilk dəfə olaraq Xəzər dənizində neft məhsullarının gəmilərdə maye şəklində daşınmasına başlanıldı.

Dünyada ilk dəfə neft məhsullarının maye halında gəmilərdə daşınması 1873-cü ildə Həştərxan tacirləri Artyomov qardaşları həyata keçirmişlər. Sonra isə Raqozin bu işi davam etdirmişdi.

Artyomov qardaşlarının təcrübəsindən istifadə edən Nobel qardaşları tərəfindən 1878-ci ildə İsveçdə ilk maye daşıyan «Zorastr» tipli gəmilər tərsanəsi tikildi və təxminən 1879-cu ildən Xəzər dənizində istifadəyə verildi. Artıq XIX əsrin sonlarında Xəzər ticarət donanmasının tərkibində 261 buxar və 527 yelkənli gəmi var idi.

Xəzər dəniz ticarət gəmiləri yük tutumuna görə Rusiya ticarət gəmiləri içərisində birinci yeri tuturdu.

Xəzər dəniz nəqliyyatının inkişafında Bakı limanının böyük yeri vardır. 1890-1907-ci illərdə Bakı limanın ümumi yük dövriyyəsində neft yüklərinin xüsusi çəkisi 84-93% təşkil edirdi.

XX əsrin əvvəllərində çay nəqliyyatı da inkişaf etmişdir. 1907-1908-ci illərdə Kür çayında 10-dan artıq gəmi üzürdü.

Burada Azərbaycan sahibkarlarının rolu yüksək idi. 1906 və 1907-ci illərdə Xəzər Gəmiçiliyində gəmilərin 40%-dən çoxu onlara məxsus idi.

Ən çox gəmisi olan sahibkarlardan Hüseynovlar, Dadaşovlar, Rəsulovlar hesab edilirdi. H.Z. Tağıyev də Xəzər dənizində ən çox gəmisi olan kapitalistlərdən biri idi.

Gəmiqayırma və Gəmi təmiri zavodları da XIX əsrdən başlayaraq fəaliyyət göstərmişdir. Bunlardan 1889-cu ildən fəaliyyət göstərən Paris Kommunası adına zavod, 1893-cü

ildə tikilən Zaqfederasiya adını daşıyan zavod, 1931-ci ildə tikilən Vano Situra adına zavod, nəhayət 1942-ci ildə fəaliyyət göstərən D.Bünyadzadə adına zavodu və s. misal gətirmək olar.

Əmək və Müdafiə Şurasının 1922-ci il 13 iyun tarixli qərarı ilə Xəzər Dəniz Dövlət Gəmiçiliyi yaradıldı. Xəzər gəmiçiliyi keçmiş SSRİ-nin ən iri müəssisələrindən birinə çevrildi.

1953-cü ildə Xəzər donanması ilə Xəzərtanker gəmiləri birləşərək vahid Xəzər Dəniz Gəmiçiliyi yaradılır.

1963-cü ildə Bakı Krasnavodsk (Türkmənbaşı) bərə yolunun verilməsi dəniz yükdaşımalarının inkişafına və sürətləndirilməsinə böyük imkan yaratdı.

1982-ci ildə yaxşı işinə görə Xəzər Dəniz Gəmiçiliyi «Xalqlar dostluğu» ordeninə layiq görüldü.

1985-ci ildə Böyük vətən müharibəsindəki xidmətlərinə görə Xəzər Dəniz Gəmiçiliyinin tərkibinə daxil olan Bakı Limanı 1-ci dərəcəli Vətən müharibəsi ordeni ilə təltif edilmişdir.

Azərbaycan Dənizçilik Təhsili əsrdən -əsrə tarixi mərhələlərdən keçərək böyük inkişaf yolu keçmişdir.

Belə ki, Mərkəzin göstərişi ilə Qafqazın baş idarəsi 21 noyabr 1881-ci ildə Bakıda dənizçilik siniflərinin açılması barədə göstəriş verir. 1896-cı ildə dənizçilik sinifləri nəzdində mexaniklər kursu da açılır. 1902-ci ildə Bakı dənizçilik sinifləri əsasında uzaq səfərlər (yollar) məktəbi təşkil edilir.

1924-cü ilin oktyabrında məktəb «Bakı Su yollar texnikumu» adlandırılır və Xəzər Gəmiçiliyinin ixtiyarına verilir.

1925-ci ildə Bakı Su nəqliyyatı texnikumunda ilk dəfə Azərbaycan bölməsi açılır. O, 1944-cü ildə Bakı Dəniz Yolları məktəbi kimi fəaliyyətini davam etdirir.

15 iyul 1996-cı ildə Prezidentin qayğısı ilə, Nazirlər Kabinetinin qərarı əsasında ali dənizçilik təhsili verən Akademiya açılır.

***Mövzunu daha ətraflı öyrənmək üçün aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***


1. Azərbaycan tarixi VII cildlikdə, 1998-2002
2. Xəzər Dəniz Gəmiçiliyi XIX əsrdən XX əsrə, Bakı 1998
3. S.A. Aşurbəyli Bakı şəhərinin tarixi, Bakı 1993
4. H.İsakov Azərbaycan Respublikasının dəniz nəqliyyatının inkişaf tarixi, Bakı 2000-ci il
5. R.C.İmanov, V.Həsənov Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixi, Bakı 2003.
6. «Dəniz» qəzeti, 18 oktyabr 2001.
7. «Səs» qəzeti, 13 yanvar 2001.
8. ADDA-nın Elmi əsərləri, № 2 2004

## *II MÖVZU: AZƏRBAYCAN ƏRAZİSİNDƏ İBTİDAİ İCMA QURULUŞU VƏ QƏDİM DÖVLƏTLƏR*

### P L A N

1. Azərbaycan ərazisində ibtidai icma quruluşu.
2. Azərbaycanda ilk dövlət qurumları və qədim dövlətlər.

Bəşər cəmiyyətinin ilk dövrü ibtidai icma quruluşu adlanır. İbtidai icma quruluşu əmək alətlərinin hazırlanması texnologiyasına uyğun olaraq 3 mərhələyə bölünür: daş dövrü, tunc dövrü və dəmir dövrüdür. Ən qədim insanların qalıqlarına Şərqi Keniya və Tanzaniya ərazisində, o cümlədən Azərbaycanda rast gəlinir. Tədqiqatçı alimlər ilk insanın yaşadığını 2-3 milyon il bundan əvvələ aid edirlər. İnsanların ilk məskənləri təbii mağaralar olmuşdur. Əlverişli təbii coğrafi şəraitə, zəngin flora və fauna aləminə, mülayim iqlimə malik olan Azərbaycan Yer kürəsində ibtidai insanın formalaşdığı regionlar sırasına daxildir. Azərbaycanda Azıx, Tağlar, Zar, Qazma Daşsalahlı və Aveydağ kimi mağara düşərgələri aşkar edilmişdir.

Ölkəmizin ən qədim insan mədəniyyəti sırasına daxil olan «Quruçay arxeoloji mədəniyyəti» mövcud olmuşdur.

Azərbaycanda ibtidai icma quruluşunun meydana çıxması ən qədim daş dövründən başlamış, tunc və dəmir dövründə onun tənəzzülü dövrü olmuşdur.

Daş dövrü əsasən üç mərhələyə bölünür: paleolit, mezolit və neolit.

**Paleolit** qədim Yunan sözüdür. Qədim Daş deməkdir. Azərbaycan ərazisində yaşamış ən qədim insanın - azıxantropun alt çənə sümüyü tapılmışdır. Azıxantrop – Azıx adamı təxminən 400-450 min il əvvəl yaşamışdır. Daş dövrünün əvvəllərində insanların əsas məşğuliyyəti yığıcılıq və ovçuluq olmuşdur.

**Mezolit dövründə (e.ə. XII - VIII minilliklər)** insanların əmək fəaliyyətində, dünyagörüşündə ətraf aləmə münasibətdə mühüm dəyişikliklər baş vermişdir; bu dövrdə ox və yay meydana gəlir. Bu dövrdə ictimai maldarlıqla yanaşı, ilkin əkinçilik vərdişlərinin də əsasları qoyulur. Ulu icma yaranır. Mezolit dövründə yaşamış insanların həyat tərzi Qobustan abidələri ərazisində öyrənilmişdir.

**Neolit dövrü: (e.ə. VII - VI minilliklər)** əsas xüsusiyyəti əkinçilik və maldarlığın əsaslı surətdə təşəkkülü və inkişafı, toxuculuğun kəşfi və gil qabların hazırlanması ilə bağlıdır. Burada ulu icmanı əvəz edən qəbilə icmasının əsasını qan qohumluğu təşkil edir və bu birlik nəsli qəbilə quruluşu adlanırdı. Bu xüsusiyyətinə görə nəsli qəbilə quruluşunun bu mərhələsi «Anaxaqanlığı» - yəni matriarxat adlanırdı. Bütün bu və bu kimi dəyişikliklər «neolit» inqilabı adlanırdı.

**Eneolit dövrü (e.ə. VI - IV minilliklər)** istehsal təsərrüfatının əsaslı surətdə formalaşması və inkişafı. Eneolit dövrünü fərqləndirən əsas xüsusiyyətlərindən biri bu dövrdə məişətdə daş məmulatı ilə yanaşı metaldan – misdən də istifadə edilməsinə başlanılmışdır.

**Azərbaycanda tunc dövrü: (e.ə. IV minilliyin sonu, II minillik)** məhsuldar qüvvələrinin sürətlə inkişafı, istehsal münasibətlərində əsaslı dəyişikliklərin başlanması və yeniliklərin meydana gəlməsi ilə xarakterizə olunur. Toxa əkinçiliyi, xış əkinçiliyi ilə əvəz olunmuş, köçəri həyat –yaylaq maldarlığı meydana gəlmiş , ən əsas sənətkarlıq inkişaf etmişdir. Əmlak bərabərsizliyi yaranmağa başlamış, böyük tayfa birləşmələri meydana gəlmişdi. Burada ata xəqanlığı hökm sürmüşdür. Tunc dövrü 3 yerə: erkən tunc, orta tunc və son tunc mərhələlərinə bölünmüşdür.

Tunc dövrü Kür-Araz mədəniyyəti kimi tanınır. Bu dövrdə bağçılıq və bostançılıq, üzümçülük və şərabçılıq meydana gəlmişdi. İnsanlar oturaq həyata başlamışdılar.

İbtidai icma dövrünün son mərhələsi e.ə. II minilliyin ikinci yarısından başlanan dəmir dövrüdür. Bu dövr cəmiyyətin dağılmağa başlanması yoxsul və varlılıara bölünməsi, sinifli cəmiyyətin yaranması, dilə və xüsusi mülkiyyətin və dövlətin meydana çıxmasına səbəb olmuşdur.

II minilliyin sonlarında ibtidai icma quruluşunun dağılması sinifli cəmiyyətə keçid prosesi sürətlənirdi. Cənubi Azərbaycan ərazisində e.ə. III minillikdə Arata, Kutium, Lullibey, Truki və s. kimi dövlət qurumları meydana gəlmişdir. Kuti və Lullibey dövlətləri e.ə. III minilliyin sonlarında süquta uğrayıb. Xırda vilayətlərə parçalanırlar.

## MANNA DÖVLƏTİ

Eramızdan əvvəl I minilliyin əvvəllərində (IX əsr) Cənubi Azərbaycan ərazisində Urmiya gölü hövzəsində paytaxtı məşhur ticarət və sənətkarlıq mərkəzi olan İzirtu şəhəri olan qüvvətli Manna dövləti meydana gəlmişdir. Eramızdan əvvəl IX - VIII əsrlərdə Manna dövləti Urmiya gölü sahilində ən güclü bir dövlətə çevrildi. Manna hökmdarı İranzunun dövründə (e.ə. VIII əsrin II yarısı) bu dövlət özünün ən qüdrətli dövrünü keçmişdir. Belə ki, hökmdar İranzu işğalçı Assuriya ordusunun Urartuyaya qarşı uğurlu müharibəsindən istifadə edərək Urartunun işğal etdiyi Manna torpaqlarını geriyə qaytara bilmişdir. İranzu: O, Manna vilayətlərini mərkəzi hakimiyyətə tabe etdi. Ölkədə canişinlik sistemi yaratdı. Kimmer, skif və sak tayfaları e.ə. VIII əsrin birinci yarısında Mannada məskunlaşdılar. Manna Assuriyanın itaətindən çıxdı və tam müstəqil oldu. Lakin, Manna dövləti e.ə. VII əsrin 70-ci illərində yaranmış Midiya dövləti ilə rəqabət apara bilməmiş, öz müstəqilliyini itirmiş VI əsrin əvvəllərində İranın mərkəzində yaranmış Midiya dövlətinin bir dəfəlik təsiri altına düşdü. Beləliklə, Azərbaycan ərazisi e.ə. VI əsrin ortalarınadək Midiyanın, eramızdan əvvəl IV əsrin 30-cu illərinədək isə İran Əhəmənilər dövlətinin tərkibində olmuşdur. E.ə. VII əsrin ortalarında Cənubi Azərbaycanın qərbində meydana gəlmiş, skif padşahlığı da e.ə. VII əsrin sonlarında Midiya dövləti tərəfindən məğlub edilərək tənəzzülə uğradı.

## ATROPATENA DÖVLƏTİ

Makedoniyalı İskəndərin Şərqə yürüşü ilə əlaqədar Əhəmənilər imperiyasının dağılması nəticəsində Azərbaycanın cənubunda Atropatena, şimalda isə Albaniya dövlətləri meydana gəlmişdir. Əsasən Cənubi Azərbaycanı və indiki Azərbaycan Respublikasının bəzi cənub rayonlarının ərazisini əhatə edirdi. O, Azərbaycanda vahid xalqın yaradılması prosesinə təkan verdi. Bir tərəfdən Parfiya, Yunan- Baktriya, o biri tərəfdən Albaniya, İberiya və Ermənistanla əhatə olunmuşdur. Mərkəzi şəhəri Qazaka Urmiya gölünün cənub şərqində, indiki Marağanın yanında yerləşirdi. Eramızın I əsrdən Parfiya dövlətinin süqutuna kimi Arşakilər sülaləsinin tərkibində qalmışdır.

Əhalisi Zərdüşt dininə sitayiş edirdi. Zərdüştliyə görə dünyada xeyir və şər qüvvələri bir-birilə mübarizə aparır. Atəşpərəslər od, su və torpağı müqəddəs sayırlar. Zərdüştliyin ən başlıca məbədlərindən biri Kazakada yerləşirdi. Zərdüşt dininin qanunları e.ə. VI əsrdə meydana çıxan Avestada öz əksini tapırdı. Avesta 12 mindən çox dana dərisində yazılmış çox cildli qanun toplusu hesab edilirdi. Atropatenada əhali ən çox buğda və arpa becərirdi. Burada çıxarılan neft çox zaman «Midiya yağ kimi» adlanırdı və hərbi işdə də istifadə edilirdi.

## ALBANİYA DÖVLƏTİ

Müstəqil Alban dövləti e.ə. IV əsrin axırı – III əsrin əvvəllərində yaranmışdır. Onun tərkibinə indiki Azərbaycan Respublikasının çox hissəsi, Dağıstanın cənub

rayonları və Gürcüstanın bir hissə ərazisi daxil idi. Görkəmli Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanov yazdığı kimi Albaniya əhalisi 26 dildə danışan tayfalardan ibarət olmuşdur. Bu tayfaların ən böyüyü Albanlar olmuşdur. Ərazidə kel, kadusi, amard, anariak, uti, uden, qarqarlar, avarlar və s yaşamışlar. Mərkəzi şəhəri Qəbələ və sonralar Bərdə olmuşdur.

Əhali taxılçılıq, tərəvəzçilik, bağçılıq, üzümçülük və maldarlıqla məşğul olurdular. Bazarlarında parfiya və Romanın pullarından daha çox istifadə edilirdi. Albanlarla Romalılar arasında e.ə. 66-cı ildə baş vermiş vuruşma Roma ordusunun qələbəsi ilə başa çatdı. Bundan əlavə e.ə. 65-ci ildə baş vermiş vuruşma da yenə də romalıların qələbəsi ilə başa çatdı. Bu vuruşmada Romalıları heyrətləndirən bir məsələ alban qadınlarının vətən uğrunda qəhrəmancasına vuruşması oldu. Alban dövləti isə romalıların hücumlarına məruz qalsa da uzun müddət daxili müstəqilliyini qoruyub saxlaya bilmişdir.

***Mövzunu daha ətraflı öyrənmək üçün aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***

1. Azərbaycan tarixi, VII clddə, I cild, Bakı 1998
2. Z.Bünyadov Azərbaycan tarixi, Bakı 1994.
3. İ.Əliyev Azərbaycan tarixi, 1993
4. S.Əliyarlı Azərbaycan tarixi, Bakı 1996.
5. M.İsmayılov Azərbaycan tarixi, Bakı 1993
6. S.Qaşqay Manna dövləti. Bakı, 1993
7. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2005

## *III MÖVZU: AZƏRBAYCAN III - XII ƏSRLƏRDƏ*

**PLAN**

1. Sasanilərin Azərbaycanı işğal etməsi
2. Azərbaycan Ərəb xilafətinin tərkibində
3. IX - XII əsrlərdə Azərbaycanda müstəqil feodal dövlətlər

226-cı ildə İranda hakimiyyətə gəlmiş sasani sülaləsi (III - VII əsrlər) daxili müstəqilliyə malik olan dövlət quruluşlarını ləğv etdi. Arşakilərə (parflara) məxsus ərazilər sasani dövlətinin ərazilərinə birləşdirildi. Sasanilər tərəfindən işğal olunmuş torpaqlarda mərkəzi nümayəndələr tərəfindən idarə olunan əyalətlər yaratdılar. Belə əyalətlərdən biri də, Azərbaycan idi. Burada canişin hakimiyyəti bərqərar edildi. Azərbaycan sasanilərin tərkibinə daxil edildi. Azərbaycanda hökmdar hakimiyyəti ləğv edildi və ölkə canişini (mərzəban) idarə etdiyi əyalətə çevrildi. Dövlətin başında Şahənşah dururdu. Şahdan sonra 2-ci rəsmi adam baş kahin hesab edilirdi. Əhali 4 sosial təbəqəyə bölünmüşdür: kahin, döyüşçülər, mirzə və vergi verənlər. Vergi verən təbəqə can (gezit, cizyə) və torpaq (xərac) vergisi ödəyirdi. Ön Qafqaza sahib olmaq uğrunda Bizans imperiyası ilə Sasanilər imperiyası arasında Miladın III əsrindən başlayan müharibələr, fasilələrlə VIII əsrin 30-cu illərinədək davam etmişdir. Müharibə Azərbaycanın təsərrüfat həyatına ağır zərbələr endirir və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Sasani müharibələri kəndli torpaqlarının hesabına iri feodal

mülklərinin yaranması və kəndlilərin feodaldan asılı vəziyyətə salınması hərəkatı ölkədə narazılığın və ictimai hərəkatın genişlənməsinə şərait yaratmışdır. V əsrin 50-60-cı illərində sasanilər əleyhinə bir çox yerlərdə üsyanlar baş verdi. Beləliklə, 481-529 –cu illərdə gedən ictimai hərəkata Məzdək başçılıq edirdi. Məzdək təliminin əsas müddəası ədalətli cəmiyyət qurmaq insanlar arasında əmlak bərabərliyi yaratmaq, ədalətli və xoşbəxt bir cəmiyyət qurmaqdan ibarət idi. Onlar deyirdilər Allah nemətləri hamı üçün yaratmışdır, ancaq bu nemətlər camaat arasında bərabər bölünməmişdir. Bu ədalətsizlik hesab edilirdi. Bu hərəkat 40 ilə qədər davam etdi. Hərəkata divan tutuldu. Məzdək və onun yaxınları öldürüldü. Bu hərəkat yatırılandan sonra feodal zülmü daha da gücləndi. Azərbaycanda Sasani mərzəbanlarının uzun müddətli hökmranlıq dövrü başlandı. Bu dövrdə Sasanilərlə Roma - erməni işğalçıları arasında məhsuldar Azərbaycan torpaqlarını ələ keçirmək uğrunda kəskin mübarizə gedirdi. Nəhayət hakimiyyətə gələn alban çarı Urnayr dövründə Albaniyanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə daha da gücləndi. Urnayr Sasani şahı II Şapurla ittifaqa girərək Roma-erməni qəsbkarlarına qarşı kəskin mübarizəyə başladı. Beləliklə, o, Amid və Dizrav döyüşlərində II Şapurla müttəfiq kimi vuruşdu. Amid döyüşü 359-cu ildə olmuşdur. Sasani - Alban və erməni–roma qoşunları arasında baş verən bu döyüşdə II Şapurun qələbəsi ilə başa çatdı. Ermənilər tərəfindən işğal edilmiş Yuxarı Qarabağ, Naxçıvan və digər vilayətlər yenidən Albaniyaya qaytarıldı. Azərbaycanlıları

vəhşiliklə qırmış erməni sərkərdəsi Vaseq edam edildi. Lakin, tarixi Dizrav döyüşündə (371) yenidən Roma ordusundan böyük kömək alan ermənilər qələbə qazandı və Yuxarı Qarabağ və s. yerləri ələ keçirə bildilər. Onlar Cənubi Azərbaycan ərazilərini də ələ keçirib dağıtdılar. Lakin hər iki dövlət arasında müharibə fasilələrlə davam edirdi. Nəhayət Romalılar ilə Sasanilər arasında müqavilə bağlandı. 387-ci il müqavilləsinə əsasən Ermənistan (Qərbi Azərbaycan) iki yerə bölündü. Albaniyanın ermənilər tərəfindən işğal edilən bir çox vilayətləri özünə qaytarıldı. Albaniya siyasi müstəqilliyini qoruyub saxlasa da sasanilərdən asılı vəziyyətdə qaldı. Ermənistan Romanın təsiri altına düşdü və bir dövlət kimi müstəqilliyini itirdi. Albaniya çar III Vaçeqanın dövründə yəni 498 -ci ildə Aquen kilsə məclisinin qanunları ilə xristianlığı rəsmən qəbul etdi və sonralar da onu möhkəmləndirməyə çalışdı.

Sasanilərin hakimiyyəti dövründə Azərbaycanda daxili və siyasi vəziyyət olduqca mürəkkəb idi. Sasani Bizans müharibələri artıq camaatı bezdirmişdi. Azərbaycanın cənubi tam və Şimali Azərbaycan isə yarım asılı vəziyyətdə sasanilərə tabe idi. Ölkədə müxtəlif dinlər və təriqətlər fəaliyyət göstərirdi. Bütün bunlardan başqa işğalçı dövlətlər tarixən istifadə edə bilmişlər. Belə ki, VII əsrdə Məhəmməd Peyğəmbərin (370-632) tərəfindən islam dininin əsasının qoyulması (610-632) və ərəb xilafətinin yaranması və bundan əlavə islam dininin başqa ölkələrə yaymaq cəhdləri getdikcə özünü daha çox biruzə verməyə başladı.

Beləliklə, Məhəmməd Peyğəmbər yeni bir din - İslam dinini yayaraq olduqca böyük bir dövlət yaratmışdır. Ərəb hakimləri islam bayrağı altında geniş istilaçılığa başladılar. Onlar ilk növbədə Sasani İranını və Bizans imperiyasını məğlubiyyətə uğratmağı qarşılarına məqsəd qoydular. 637-ci ildə onlar Sasani hökmdarlarının paytaxtı Ktesifonu (Mədaini ) tutdular və sonra isə Cənubi Azərbaycana basqın etdilər. Xilafətin qoşunlarının Azərbaycana ilk hücumları 639-640-cı illərdə olmuşdur. Beləki, VII əsrin 40-cı illərində Salmanın başçılığı ilə xilafət ordusu Naxçıvanı tutdu. Şəki və Coruş istiqamətində hərəkət etdilər. Beyləqanı, Bərdəni, Şəmkir, Qəbələ, Şəki, Şirvanı xərac verməyə məcbur etdi və Dərbəndə daxil oldu, lakin 653-cü ildə Bələncər yaxınlığında xəzərilər tərəfindən məğlub edildi.

VII əsrin ortalarında Azərbaycanın cənub hissəsinə tam nəzarət edən xilafət, 750-ci ildə ölkənin şimalının – Albaniyanın da müstəqilliyinə son qoydular. Ərəblər Azərbaycanda öz hakimiyyətini möhkəmləndirməkdə islam dinindən çox kəsərli vasitə kimi istifadə edirdilər. Azərbaycan xalqının çoxəsrlik qəhrəmanlıq tarixi istismarçılara və yadelli işğalçılara qarşı qəhrəmanlıq mübarizəsi ilə zəngindir. Bunlara misal olaraq Müsafir adlı qəssabın başçılıq etdiyi və ərəbləri qorxuya salan 748-ci il Beyləqanda başlayan xalq üsyanını misal çəkmək olar.

Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri ərəb xilafətinə qarşı 60 ildən artıq davam etmiş Xürrəmilər hərəkatıdır.

Xürrəmilər Babəkə qədər xilafətə qarşı iki dəfə (778-ci və 808-ci illərdə) üsyan edirlər. 808-ci ildə üsyana Cavidan başçılıq edirdi. Cavidanın ölümündən sonra 816-cı ildə əsl adı Həsən olan-Babək başçılıq etməyə başlamışdı. 819-830-cu illərdə Xürrəmilər ərəb orduları üzərində beş dəfə qələbə qazandılar. 833-cü ildə Həmədan şəhəri yaxınlığındakı döyüşdə ağır məğlubiyyətə uğramışlar.

Hərəkat 837-ci ildə sərkərdə Afşinin başçılıq etdiyi ərəb ordusu tərəfindən yatırılmışdır. 4 yanvar 838-ci ildə Babək Samirə şəhərinə gətirilərək mart ayında işgəncə ilə qətlə yetirildi. Xürrəmilər - hərəkatı məğlubiyyətə uğrasa da xilafəti əsaslı surətdə laxlatdı, o əvvəlki mövqeyini bir daha bərpa edə bilmədi. Onun nüfuzu Azərbaycanda da getdikcə zəifləməyə başladı.

IX yüzilliyin sonunda ərəb xilafəti getdikcə zəifləmiş, ərəb xilafətinə tabe olan ölkələrdə müstəqillik meyli də xeyli güclənmişdir. Bu ölkələrin başında olan feodallar və hakimlər mərkəzi hakimiyyətə tabe olmur. Topladıqları vergiləri dövlət xəzinəsinə verməkdən imtina edirdilər. Azərbaycanda da xüsusən Aranda ərəblərdən asılı olan Süunik, Beyləqan, Qəbələ, Şəki və s. kimi feodal dövlətlər var idi. Xürrəmilər hərəkatı yatırıldıqdan sonra IX-XII əsrlərdə Azərbaycanda bir sıra müstəqil və yarımmüstəqil dövlətlər yarandı. Onlardan ən nüfuzlusu Sacilər, Səlarilər, Şəddadilər, Rəvadilər və s. idi. IX- XII əsrlərdə gərgin mübarizə şəraitində Azərbaycanda müstəqil feodal dövlətlərinin yaranması müstəsna əhəmiyyəti olan hadisə idi. Bu feodal dövlətləri yaradan Sülalələr mənşəcə müxtəlif olsalar da, onların təşkil etdiyi dövlətlər

Azərbaycan ərazisini əhatə edirdi. Bu dövlətlərdən Sacilər və Səlarilər ara müharibələri və daxili mübarizə nəticəsində Rəvvadilər və Şəddadilər isə Səlcuqların hücum və təzyiqlər nəticəsində fəaliyyətlərini dayandırmağa məcbur oldular. XI əsrdə Toğrul bəy və onun qardaşı Çağrı bəy Naxçıvanı və onun ətrafındakı torpaqları, Azərbaycanın bir çox digər bölgələrini də nəzarət altına aldılar. Onlar Azərbaycanın cənub torpaqlarını da öz nəzarətləri altında saxlaya bildilər. 119 il fəaliyyət göstərən Səlcuqlər dövləti türk dilli xalqların hərbi-siyasi, sosial-iqtisadi və mədəni inkişafına güclü təsir göstərdi.

Səlcuq sultanı Səncarın vaxtında (1118-1157-ci illər) Səlcuq dövləti tənəzzül etdi və onun ərazisi bir neçə yerə parçalandı. Səlcuq dövlətinin parçalandığı şəraitində Azərbaycanda feodol dövlətlərinin yenidən bərpa olunması üçün şərait yarandı.

XII əsrin 20-ci illərində yaranmış tarixi şərait nəticəsində Şirvanşah dövləti bərpa olundu və fəaliyyətlərini davam etdirdi.

XII əsrin 30-cu illərində Azərbaycanda yaxın və orta Şərqin olduqca əzəmətli dövlətlərindən biri olan Azərbaycan Atabəylər dövləti meydana gəldi. Dövlətin yaradıcısı Şəmsəddin Eldəgiz oldu.

Azərbaycan Eldəgizlər dövlətinin tarixi təşəkkül, (1136-1225) çiçəklənmə (1161-1191) və tənəzzül dövrünə bölünür. Naxçıvan şəhəri onun paytaxtı seçilmişdi. Sultan sarayında onun oğulları Məhəmməd Cahan Pəhlivanı Hacib, Qızıl Arslan isə baş komandan təyin edilmişdir. Atası Şəmsəddin Eldəgiz vəfat etdikdən sonra hakimiyyətə

Məhəmməd Cahan Pəhləvani keçdi. O, paytaxtı Naxçıvandan Həmədana köçürdü.

Atabəy Əbu Bəkir və Özbəyin hökmranlığı dövründə Eldəgizlər dövləti tənəzzülə uğradı və Xarəzm şahın oğlu Cəlaləddinin Azərbaycana hücumu zamanı (1225-ci il) süqut etdi.

***Mövzuya dair aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***

1. Azərbaycan tarixi, VII cildlikdə, II cild 1998
2. Z.Bünyadov Azərbaycan tarixi, Bakı 1994
3. İ.Əliyev Azərbaycan tarixi , Bakı 1993
4. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2005
5. N.Vəlixanlı Ərəb xilafəti və Azərbaycan, Bakı 1993
6. Z.Bünyadov Azərbaycan Atabəylər dövləti, Bakı 1985
7. M.Şərifli IX əsrin II yarısı – XI əsrdə, Azərbaycan feodal dövlətləri, Bakı 1978
8. R.C.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007.

## *IV MÖVZU: AZƏRBAYCAN XIII – XIV ƏSRLƏRDƏ*

# PLAN

1. Azərbaycan monqol əsarəti altında
2. Azərbaycan Hülakilər dövlətinin tərkibində
3. Azərbaycan XIV əsrin sonunda, Hürufilik

XIII yüzilliyin əvvəllərində Mərkəzi Asiyada öz dövlətini quran köçəri monqollar 1220-1222- ci illərdə Azərbaycana kəşfiyyat məqsədi ilə yürüş etdilər. Yürüşə Çingiz xanın məşhür sərkərdələri Cəbə və Sabutay başçılıq edirdilər. Cənubi Azərbaycana daxil olan monqollar Zəncan, Ərdəbil, Sərab və s. şəhərləri talan edib Təbrizə yaxınlaşdılar. Eldəgiz Özbək çoxlu xərac verərək şəhəri qoruya bildi.

1221–ci ildə Gürcüstanda dağıntılar törətdikdən sonra onlar yenə Təbriz şəhəri üzərinə yeridilər. Təbriz hakimi Şəmsəddin Tuğray xərac verərək şəhəri qarət və dağıntıdan xilas edə bildi. Onlar 1221-ci ildə Sərab və Beyləqanı dağıtdıqdan sonra Gəncə əhalisindən çoxlu xərac alaraq Gürcüstana keçdilər.

Gürcüstandan Şirvan üzərinə yeriyən monqollar Şamaxını dağıdıb çoxlu insan qırdıqdan sonra 1222-ci ildə Dərbəndin üzərinə hücum etdilər. Dərbəndi tuta bilməyərək Şimali Qafqaza və oradan da Rusiya torpaqlarına üz tutdular. Beləliklə, monqolların Azərbaycana 1-ci yürüşü başa çatdı. Onlar bununla Azərbaycanın ictimai həyatına böyük zərbələr vurdular. Monqolların Azərbaycandan çəkilib getdiklərindən xəbər tutan qıbçaq dəstələri 1223-cü ildə Qafqaz çöllərindən keçərək Dərbəndə, Şirvan və Arana gəldilər. Qəbələ və Gəncəni ələ keçirdilər. Onlar Şirvan, Gəncə, Gürcüstan və Dağıstan əhalisinin birləşmiş qüvvələri tərəfindən məğlub edilərək ölkədən qovuldular. Bir qədər sonra Azərbaycandakı qarışıqlıqdan istifadə edən Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin 1225-ci ildə Azərbaycana hərəkət

etdi. Əvvəlcə o, cənubi Azərbaycan istiqamətində irəliləyərək Marağanı, Təbrizi tutdu. Sonra isə onlar Şimali Azərbaycana doğru irəliləyərək Bərdəni, Gəncəni, Şəmkir və s. yerləri tutdu. Olduqca böyük dağıntılar törədən və özbaşnalığa yol verən Cəlaləddin əsgərləri Azərbaycanın bir sıra bölgələrində, o cümlədən Təbriz, 1231-ci ildə isə sənətkar Bəndərin başçılıq etdiyi Gəncə üsyanlarını amansızlıqla yatırdı.

Monqolların Azərbaycana II yürüşü 1231-ci ildə başlandı. Onlar Marağanı, Gəncəni, Şəmkir, Tovuz, Bakını və s. yerləri ələ keçirərək 1239-cu ildə Dərbənd şəhərinin işğalı ilə Azərbaycanın yenidən işğalını başa çatdırdılar. 1239-1250-ci illərdə monqol canişini ölkəni idarə etməyə başladı.

Monqolların ön Asiyada, o cümlədən Azərbaycana III yürüşü Hülaki xanın rəhbərliyi ilə 1253-cu ildə başladı. 1258- ci ildə Azərbaycan monqol Hülakilər (Elxanilər) dövlətinin tərkibinə daxil edildi.

1258-ci ilin fevralında Bağdadı tutan Hülaki xan 500 ildən artıq hökm sürən Abbasilər sülaləsinin varlığına son qoydular. Tərkibinə Azərbaycan, İraq, İran, Kiçik Asiya, Gürcüstan və s. daxil olan Hülakilər dövləti fəaliyyətini genişləndirdi. Dövlətin paytaxtı Marağa, Təbriz və sonralar isə Sultaniyə olmuşdur. Qarabağ Hülakilərin yaylağına, Muğan isə qışlaq iqamətgahına çevrildi. İslam dinini əvvəlcə qəbul edən və onu bütün sakinlərə qəbul etdirən Qazan xan (1295 -1304) özünü Qarabağın padşahı elan etdi.

1303-cü ildə o dövləti möhkəmləndirmək məqsədi ilə bir sıra islahatlar keçirdi. İslamı dövlət dini elan etdi. Torpaq, vergi, məhkəmə, ticarət sahəsində islahat keçirdi. 1357-ci ildə Azərbaycanda monqol əsarətinə qarşı çıxışlar feodal ara müharibələri Hülakilər dövlətinin süqutuna son qoyuldu. Beləliklə, monqol əsarətinə son qoyuldu. Azərbaycan Cəlairlər dövlətinin (1359-1410 ) tərkibinə daxil edildi. Azərbaycanda nəhayət 1358-59-cu ildə paytaxtı Təbriz olan Cəlairlər dövləti yarandı.

Sultan Əhməd Cəlairin hakimiyyəti dövründə (1382-1410) Azərbaycan yadellilərin - Əmir Teymurun Qızıl Ordaxanı Toxtamışın hücumlarına məruz qaldı. 1385-ci ildə Əmir Teymur Azərbaycana daxil oldu. Ölkəsində baş verən iğtişaşlarla bağlı geri qayıtdı. Bundan istifadə edən başqa bir işğalçı Qızıl Ordaxanı Toxtamış 90 minlik ordu ilə Təbrizə qədər gəldi və hiylə yolu şəhəri tutdu. Marağa, Mərənd, Naxçıvan və əksər şəhərlərini qarət edərək Qarabağa gəldi. Çoxlu qənimət və 200 minlik əsirlə ölkəni tərk etdi.

Əmir Teymur isə 1386-cı ildə yenidən Azərbaycana gəldi. Təbrizi, Naxçıvanı tutdu, təxminən 12-13 ildən sonra Əlincə qalasını ələ keçirə bildi və öz hakimiyyətini Azərbaycanda möhkəmləndirdi.

Miranşahın rəhbərliyi ilə teymurilər Azərbaycanın cənubunda, Qarabağda və s. bölgələrdə xalqa divan tutur, onların mal-qaralarını əlindən alır, şəhər və kəndləri xarabalığa çevirirdilər. Müdriklərdən birinin söylədiyinə görə: Teymurilərin ayaqları dəyən yerdə nə yumurtayacaq bir toyuq, nə banlayacaq bir xoruz belə tapmaq olmaz. Xalqa etdiyi dəhşətli zülmə görə insanlar onu Maranşah, yəni «İlanşah» adlandırırdılar. Bu baxımdan da teymurilərə və teymur qoşunlarına qarşı xalqın çıxışları başladı. Bunlardan biri də Şirvanda, Şəki, Naxçıvan və başqa bölgələrdə geniş yayılan Hürufilik hərakatını qeyd etmək olar. Hürufiliyin banisi Azərbaycan şairi və mütəfəkkiri Fəzlullah Nəimi idi (1339-1394). Onun görkəmli ardıcıllarından biri də İmaməddin Nəsimidir. (1369-1417). Hürufiliyin proqramı və bütün ideyaları Nəiminin «Cavidnamə» əsərində cəmlənmişdir. Onlar heç vaxt Allahın varlığını inkar etməyib yəni onun varlığını təsdiq ediblər. Lakin, hürufilər iddia edirdilər ki, Allahın kölgəsi müdrik, ağıllı insanların qəlbindədir, əşyaların, canlılıarın içərisindədir.

Nəsimi göstərir ki, öz mənliyindən imtina edib Allahla birləşəndən sonra yalnız bir Mən – Allah qalır. Onun əsərlərində «Haqq» (Allah) ilə «cümlə aləm» arasındakı vəhdət üçün anlayışı vasitə olur. O insan ən geniş Allah, həm də «cümlə aləm»-dir. Onlar müdrik kamil adamları yer üzünün Allahı hesab edirlər. Hürufilər

işğalçı, ədalətsiz, zülümkar hakimlərə qarşı çıxaraq, insanların azad yaşamasını istəyirdilər. Bu baxımdan da onlar və onların tərəfdarları Əmir Teymur tərəfindən qəddarlıqla cəzalandırılmışdır. 1402-ci ildə Ankara döyüşündə Osmanlı və onun müttəfiqləri üzərində qələbə qazanan Əmir 1405-ci ilin fevralında Çinə yürüş zamanı vəfat etdi.

Onun vəfatından sonra Teymurilər hakimiyyəti getdikcə zəifləməyə başlayır. Onun imperiyası daxilində feodal ara çəkişmələri başlanır, onun övladlarının vəliəhdlik uğrunda mübarizəsi Azərbaycanda teymurilərə qarşı üsyanlar getdikcə gücləndi.

Bütün bunlar hakimiyyət uğrunda bir çox tayfaların və hakimlərin qələbəsi ilə nəticələndi.

***Mövzuya dair aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***

1. Azərbaycan tarixi, VII cilddə, III cild, Bakı 1999, səh. 14-15
2. Z.Bünyadov Azərbaycan tarixi, Bakı 1994
3. İ.Əliyev Azərbaycan tarixi, Bakı 1903
4. M.İsmayılov Azərbaycan tarixi, Bakı 1993
5. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2005
6. Y.Rüstəmov Fəlsəfənin əsasları, Bakı 2004
7. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2009

## V MÖVZU: XV – XVIII ƏSRLƏRDƏ AZƏRBAYCAN FEODAL DÖVLƏTLƏRİ

## PLAN

1. Qaraqoyunlu və Ağqoyunlu dövləti
2. Azərbaycan Səfəvilər dövləti
3. Azərbaycan xanlıqlar dövründə

Bayraqlarındakı qara və ağ qoçun təsvirlərinə görə Ağqoyunlu və Qaraqoyunlu adlandırılan Oğuz türkləri XV əsrdə təkcə Azərbaycan deyil, bütövlükdə orta şərq tarixində mühüm rol oynamışlar.

Qaraqoyunlu və Ağqoyunlu tayfaları Azərbaycan xalqının təşəkkülündə də mühüm rola malik olmuşlar.

Mənşəcə oğuz tayfalarından olan Qaraqoyunlu sülaləsinin görkəmli banisi Bayram Xoca idi. Əvvəlcə Van gölünun, əsrin sonlarından isə indiki Türkiyə Respublikasının cənub-şərq torpaqlarında, Qərbi Azərbaycanda məskunlaşmışlar. Bayram Xocadan sonra, Qara Məhəmməd tərəfindən möhkəmləndirilmiş və sonra inkişaf edərək güclü dövlət halına gəlmişdir. Qaraqoyunlu dövlətinin görkəmli nümayəndəsi Qara Yusifin səyi nəticəsində Qaraqoyunlular Əmir Teymurun ölümündən istifadə edərək 1406-cı ildə Təbriz yaxınlığında Teymuri sərkərdəsi Əbubəkri əzərək onu məğlub etdi. 1408-ci ilin yazında Teymurun oğlu Miranşahın güclü ordusunu darmadığın etdi və hətta Miranşah döyüş meydanında öldürüldü.1410-cu ildə müttəfiqi Sultan Əhməd Cəlairi də

məğlub edərək 1410-cu ildə paytaxtı Təbriz şəhəri olan Qaraqoyunlu dövlətini yaratdı. O, 1412 –ci ilin sonunda Kür sahilində Şirvanşah I İbrahimin başçılıq etdiyi gürcü və Şəki birləşmiş qüvvələrini məğlub edərək onları özündən asılı etdi. (Bu döyüşdə Kaxetiya çarı Konstantin, Şəki hakimi Seyid (Əhməd də) iştirak etmişdir. Qara Yusif Qəzvindən Ərzincana, Bağdaddan Şirvana qədər olan geniş bir əraziyə yiyələndi.

Lakin, 1420-ci ildə Qara Yusifin ölümündən sonra ölkədə vəziyyət gərginləşdi. Qaraqoyunlu İskəndərin, Əbu Səidin hakimiyyəti illərində (1422- 1438) Azərbaycanın iqtisadi və siyasi həyatında ən ağır dövr oldu. Ara müharibələri, feodal özbaşnalığı təssərrüfat həyatını bütün pozmuşdur. Qaraqoyunlu Cahan şahın (1438-1467) dövründə ölkədə vəziyyət bir qədər sabitləşməyə başladı. O müstəqil siyasət yeridərək oturaq feodallara və tacirlərə arxalanaraq köçəri əmirlərə, mərkəzi hakimiyyətə qarşı çıxan qüvvələrə qarşı kəskin mübarizə apardı. Orduda hərbi islahat keçirərək möhkəm intizam yarada bildi. 1467-ci ildə Təbrizdə şərqdə məşhur olan «Göy məscid» inşa etdirdi. Lakin, 1467-ci ildə may ayında Müş döyüşündə Azərbaycanın qərbində yaşayan Ağqoyunlu Uzun Həsən tərəfindən məğlub edilərək öldürüldü, kəsilmiş başı Teymuri Sultanı Əbu Səidi qorxutmaq üçün Herata göndərildi.

Beləliklə, Qaraqoyunlu dövləti süquta uğradı. Onu Ağqoyunlu dövləti əvəz etdi.

## AĞQOYUNLU DÖVLƏTI

Ağqoyunlu tayfa birliyi Göyçə gölü ətrafında Şərqi Anadolu, Qərbi İran, Dəclə və Fərat çayları vadilərində yurd salmış qədim türksoylu tayfalardan biri olmuşdur. Özünün ən qüdrətli çağlarında Ağqoyunlu dövlətinin ərazisinə Kürdən cənubdakı Azərbaycan torpaqları, Ərməniyyə (Qərbi Azərbaycan) Diyarbəkir, Şərqi Gürcüstan, Ərəb İraqı, Gilan, Mazandaran, Xorasan, İranın bir çox vilayətləri daxil idi.

Ağqoyunlu Uzun Həsən dövründə (1468-1478) əhali üzərinə qoyulmuş ağır vergiləri nizama salmaq məqsədilə «Qanunnamə» verdi, feodal və əyanları mərkəzi hakimiyyətə tabe etdi. İslam dinini dövlət dini elan etdi. Bir çox xarici ölkələrlə: Venesiya, Macarıstan, Polşa, Rusiya, Roma və s. ölkələrlə ticarət və diplomatik əlaqə yaradılmışdı. Belə bir münasibətlərin qurulmasına Azərbaycanın 1-ci diplomat xanımı, Uzun Həsənin anası Sara xatunun böyük xidməti olmuşdur. Lakin, Ağqoyunlu dövlətinin qüvvətlənməsi yaxın qonşumuz olan Osmanlı Türkiyəsini qane etmir və həmişə onu narahat edirdi. Osmanlı sultanı II Mehmet ön Qafqazı, Azərbaycanı tutmağa olduqca çox cəhd göstərirdi. O, çalışırdı ki, Ağqoyunlu dövləti Osmanlılardan asılı olsun. Bütün bunlar iki ölkə arasında ziddiyyətin kəskinləşməsinə və müharibə vəziyyətinin yaranmasına səbəb oldu.

Beləliklə, Sultan Türkiyəsi ilə Ağqoyunlu dövləti arasında 1473-cü ilin avqustunda müharibə başladı.

1 avqust 1473- cü ildə Uzun Həsən Malatiyada Osmanlı dövlətinin sayca və odlu silahla üstün olan

ordusunu məğlub etdi. 11 avqust 1473-cü ildə Tərcan döyüşündə Osmanlı ordusu Ağqoyunlu ordusunu geri oturtdu. Uzun Həsənin ölümündən sonra dövlət zəifləməyə başladı. Ölkəni çəkişmələr bürüdü. XV əsrin sonunda, əsasən 1500-cü ildə Ağqoyunlu dövləti Əlvənd Mirzə və Sultan Murad arasında bölüşdürülürdü. Bu parçalanma əslində Ağqoyunlu dövlətinin hərbi qüdrətini sarsıtdı və onun süqutuna gətirib çıxartdı.

## SƏFƏVİLƏR DÖVLƏTİ

Ağqoyunlu dövlətinin zəifləməsi və onun parçalanmasından sonra XV əsrin II yarısında Azərbaycan Səfəfilərinin Ərdəbil hakimiyyətinin əhəmiyyəti getdikcə xeyli artdı. Bu baxımdan da Azərbaycanın brləşdirilməsi uğrunda Səfəvilərin mübarizəsi genişlənməyə başladı.

Səfəvilər sülaləsi və dövlətin tarixi 4 dövrə bölünür:

Birinci dövr – XIII əsrin sonlarından 1447-ci ilə qədər – bu dövrdə Səfəvilər şiyəliyi yayır. Xalqın anti feodal hərəkatına başçılıq edirlər.

İkinci dövr 1447- 1501-ci illər. Bu dövrdə Səfəvilər özlərini müstəqil feodal ruhaniləri kimi təbliğ edir və Azərbaycanın siyasi həyatında mühüm rol oynayır.

Üçüncü dövr 1501 -1587 –ci illər. Həmin dövrdə Səfəvilərin dövləti yaranır, möhkəmlənir və onlar Azərbaycanın iqtisadi–siyasi və mədəni həyatında mühüm rol oyayır.

Dördüncü dövr 1587 -1736-cı illəri əhatə edir. Bu dövrdə Səfəvi dövlətinin mərkəzi Təbrizdən İsfahana

köçürülür. Dövlətin mahiyyəti dəyişilir. Səfəvi nəslindən olan İsmayıl Şamlı, Təkəli, Zülqədər, Əfşar, Qaçar və s. türk tayfalarına arxalanaraq Azərbaycan tarixində vahid mərkəzləşmiş müstəqil Azərbaycan dövləti yaratmaq idi. Onun məqsədi bu dövləti bütün Şərq aləminə tanıtmaq idi. Şah özünü həm dünyavi, həm də dini başçı hesab edirdi. Onun tərəfdarları və ya müridləri başlarına 12 imamın şərəfinə 12 qırmızı zolaqlı şiş papaq qoyurdular. Buna görə də onlara qızılbaşlar deyirdilər.

1500-ci ilin payızında Çəbanı adlanan yerdə döyüşdə Şirvanşah Fərrux Yasər Qızılbaşlar tərəfindən məğlub edilərək öldürüldü. İsmayıl Səfəvi 1501-ci ildə Şərur yaxınlığında Ağqoyunlu Əlvənd Mirzənin 30 minlik ordusunu da məğlub etdi. Payızda Təbrizə daxil olaraq 1501-ci ildə özünü şah elan etdi. 1503-cü ilin yayında Ağqoyunlu Murad Mirzənin 70 minlik ordusunu darmadağın edərək 5 il ərzində Şah İsmayıl İranı, İraqı, Ərməniyyəni, Şərqi Anadolunu Azərbaycan Səfəvi dövlətinə qatdı. O, 1510-cu ildə Özbək xanı Şeybanı da Mərv döyüşündə məğlub etdi. Beləliklə, 1501-ci ildə Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Dövlətdə əksər çoxluğu azəri türkləri təşkil edirdi. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirliyindən 69-u Azərbaycan türkü idi. Ordu da və onun rəhbər heyəti də Azərbaycan tayfalarından təşkil olunurdu.

Azərbaycan dili dövlət dili elan edilmişdir. Şahın sarayında qoşun içərisində, diplomatik yazışmalarda Azərbaycan dili tətbiq olunurdu. Azərbaycanın torpaqları

Şirvan (1538) və Şəkidə (1551) Səfəvilər dövlətinə birləşdirildi.

1514-cü ildən 1539-cu ilədək davam edən Səfəvi - Osmanlı müharibələri Səfəvi dövlətinin hərbi və iqtisadi qüdrətinə və mədəni həyatına güclü zərbə vurdu. XVIII əsrin əvvəllərində Səfəvi dövləti ağır iqtisadi və siyasi böhran girdabına düçar oldu. Ölkədə aclıq, yoxsulluq, xəstəlik başladı ki, bu da itaətsizliklə və xalqın hökumət əleyhinə çıxışları ilə nəticələnirdi.

Səfəvilər dövlətinin daxili vəziyyətindəki qarışıqlıqdan istifadə edən Rusiya hacı Davudun və Surxay xanın Şamaxıdakı rus taçirlərini incitməsini, onların bir çoxunun qarət edilib öldürülməsini bəhanə edərək 1722-ci ildə Azərbaycanın işğalına başladı. 1722-ci ilin avqustunda Dərbənd, 1723-cü ilin iyulunda isə Bakı rusların əlinə keçdi. Beləliklə, rus qoşunları 1722-1723-cü illərdə Azərbaycanın Xəzər sahili vilayətlərini ələ keçirdilər. Bu ərazilər 1735-ci ilədək, yəni Gəncə müqaviləsinədək Rusiyanın hakimiyyəti altında qaldı. 1736-cı ildə Muğanda çağırılan qurultayda Nadirquluxan özünü şah elan etdi. Beləliklə, Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu.

Nadir şah Əfşarın dövründə (1736- 1747- ci illər) Azərbaycan vahid inzibati bölgüyə daxil edildi. Lakin, aramsız ara müharibələri nəticəsində gərgin iqtisadi vəziyyət, sinfi mübarizə nəticə etibarilə Nadir şah imperiyasının süqutuna səbəb oldu.

## AZƏRBAYCAN XANLIQLAR DÖVRÜNDƏ

XVIII əsrin ortalarında İranda feodal ara müharibələrinin meydana gəlməsi və genişlənməsi nəticəsində Azərbaycanda bir sıra müstəqil və yarımmüstəqil feodal dövlətlər xanlıqlar meydana gəldi. Azərbaycanın şimalında Qarabağ, Naxçıvan, İrəvan, Şirvan, Gəncə, Şamaxı, Şəki, Bakı, Quba, Dərbənd, Səlyan, Cavad, Talış, Lənkəran, cənubda isə Təbriz, Urmiya, Xoy, Qaradağ, Sərab, Marağa, Maku, Mərənd, Ərdəbil xanlıqları yarandı.

Eyni zamanda Azərbaycan Qutqaşen, Qəbələ, Ərəş, Qazax, Şəmsəddin, Ordubad, İlusu, Borcalı sultanlıqları və Qarabam xanlığının tərkibində olan Vərənd, Xaçın, Gülüstan, Dizak, Ciləbörd məliklikləri meydana qəldi.

Qarabağ xanlığının əsasını Cavanşir boyundan olan Pənahəli xan (1748-1763) qoymuşdur. O, əvvəlcə xanlığın paytaxtı kimi Bayat və Şahbulaq qalalarını tikdirmiş və möhkəmləndirmişdir. Daha sonra strateji cəhətdən daha əhəmiyyətli olan Şuşanın (Pənəhabadın) əsasını qoymuşdu. Şuşa şəhərində 1751-1757-ci illərdə tikinti quruculuq işləri aparıldıqdan sonra Qarabağ xanlığının paytaxtı kimi möhkəmləndirildi. Onun dövründə Qarabağ xanlığı güclənmişdi. İbrahim xanın hakimiyyəti dövründə (1763-1806) Qarabağ xanlığı daha da güclənmişdir. Qarabağ xanlığını özünə tabe etmək istəyən İran şahı Ağa Məhəmməd Şah Qacar 1795-ci və 1797-ci illərdə Qarabağ xanlığı üzərinə hücuma keçərək Şuşanı ələ keçirmişdir. Qarabağ xanlığı öz gücünü 1795-1797-ci illər Ağa Məhəmməd Şah Qacar və onun qoşunlarına qarşı mübarizədə göstərdi.

Şəki xanlığının əsasını isə Hacı Çələbi xan (1743-1755) qoymuşdur. Onun dövründə Şəki xanlığının ərazisi xeyli genişlənmişdir. Belə ki, Qəbələ, Ərəş və İlusu sultanlıqları Şəki xanlığının təsiri altına düşmüşdür. Hacı Çələbinin ölümündən sonra Şəki xanlığı getdikcə zəifləmişdir.

Şimali Azərbaycan xanlıqları arasında öz qüdrəti ilə seçilən Quba xanı Fətəli xan bütün Azərbaycanı vahid dövlətdə birləşdirmək xətti götürmüşdü. 1757-ci ildə Səlyan, 1758-ci ildə Dərbənd, 1760-1780-cı illərdə isə Bakı, Şamaxı, Şəki tabe edildi.

Beləliklə, Şimali-Şərqi Azərbaycan Fətəli xanın hakimiyyəti altında birləşdirildi. 1774-cü ildə Gavduşan döyüşündə qonşu xanların tərəfindən məğlub edilən Fətəli xan kömək ücün Rusiyaya müraciət etdi. Rusiyanın köməyi ilə Azərbaycanın cənub xanlıqlarını da öz dövlətinə birləşdirmək istəyən Fətəli xan Gilanı və Ərdəbili də ələ keçirdi. Lakin, 1789-cu ildə Fətəli xan Bakıda vəfat etdi.

Beləliklə, XVIII əsrdə əvvəlcə Şəki və sonra Quba xanlarının Azərbaycan torpaqlarını öz ətraflarında birləşdirmək cəhdiləri baş tutmadı.

***Mövzuya dair aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***

1. Azərbaycan tarixi VII clddə, III - IV cildlər, Bakı 1999
2. Ziya Bunyadov Azərbaycan tarixi, Bakı 1994
3. İ.Əliyev Azərbaycan tarixi, Bakı 1993
4. M.İsmaylov Azərbaycan tarixi, 1993
5. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2005

6. O.Əfəndiyev Azərbaycan səfəvilər dövləti, Bakı 1998
7. R.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr,
Bakı 2007.
8. Azərbaycan Milli Ensiklopediyası, Bakı 2007

## *VI MÖVZU: AZƏRBAYCAN XIX - XX YÜZ ILLIYIN ƏVVƏLLƏRINDƏ*

## PLAN

1. Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi.
2. Şimali Azərbaycanda kapitalist münasibətlərinin yaranması və inkişafı.
3. Şimali Azərbaycan XX əsrin əvvəllərində (1900-1917-ci illər)

XVIII əsrin sonu XIX əsrin əvvəllərində Azərbaycanda daxili və xarici siyasi vəziyyətin daha da mürəkkəbləşməsi İran və Rusiyanın cənubi Qafqazda öz hökmranlıqlarını bərpa etmək uğrunda mübarizələrinin güclənməsinə səbəb oldu. Bu baxımdan da 1801-ci ildə Şərqi Gürcüstanla birlikdə Qazax və Şəmsəddil sultanlıqlarının Rusiyaya birləşdirilməsi ilə Azərbaycan torpaqlarının işğalının başlanğıcı oldu. 1803-cü ilin yayında isə Rus qoşunlarının baş komandanı gürcü mənşəli Sisiyanovun başçılığı altında Çar Balakən işğal edildi və yandırıldı. Çar Balakən camaatı ilə bağlanmış müqaviləyə görə Çar Balakən hər il çar xəzinəsinə 220 pud ipək verməli və rus qoşunlarının orada yerləşdirilməsinə şərait yaratmalı idilər. Rusiya hökuməti isə öz növbəsində Çar Balakənin islərinə müdaxilə etməməli idi. Rus qoşunları 1803-cü ildə Şamxoru da tutandan sonra Gəncə xanlığı üzərinə hücum etdi. 1804-cü ilin əvvəllərində bir aylıq gərgin döyüşlərdən sonra Cavad xanın başcılıq etdiyi Gəncə xanlığı işğal olundu. Ramazan bayramı günündən yanvarın 3-nədək başlayaraq general Lazerovun başçılığı ilə ruslar ermənilərin köməkçiliyi ilə Gəncədə vəhşiliklər və geniş dağıntılar törətdilər. Qəhrəmanlıq

göstərən Cavad xan və oğlu həlak oldu. Şəhərin adı dəyişdirilib Yelizavetpol qoyuldu. Bir qədər sonra 1805-ci ildə Qarabağ, Şəki və Şirvan hakimləri öz xanlıqlarının Rusiyaya qatılması ilə razılaşmağa məcbur edildilər. 1806-cı ildə Quba və Bakı tutuldu. Rus qoşunlarının baş komandanı Sisiyanov Bakı xanı Hüseynqulu xanın yaxın qohumu tərəfindən öldürüldü. Qorxuya düşən ruslar Qarabağ xanı İbrahim xanın onlara qarşı çıxacağından qorxaraq iyun 1806–cı ildə mayor Lisonoviç tərəfindən ailəsi ilə birlikdə qətlə yetirildi. 1809-cu ildə talış xanlığı da rus qoşunları tərəfindən tutuldu. Rusiyanın Qafqazda və Azərbaycanda işğalçılıq siyasəti ilə barışmayan İran və Türkiyə dövlətləri Çar Rusiyasına qarşı hərbi əməliyyata başladılar. Bütün bu göstərilən faktlarla əlaqədar 1804-cü ildə İranla, 1806-cı ildə isə Türkiyə ilə başlanan müharibələrdə Rusiya qələbə çaldı. İran Gülüstan sülhü ilə (12 oktyabr 1813-cu il) İrəvan və Naxçıvan xanlıqlıqları müstəsna olmaqla Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən tutulması ilə barışmağa məcbur oldu. Rusiyanın Azərbaycanla möhkəmlənməsi ilə razılaşmayan İran hökuməti Peterburqda üsyanın baş verməsi xəbərini eşidərək 1826-cı ilin iyul ayında 60 minlik qoşunla Arazı keçib Şuşanı mühasirəyə aldı. Bundan ruHlanan Gəncə, Şəki, Şamaxı əhalisi rusları qovdu. Lakin, rusların əks hücumlarından sonralar qorxuya düşən İran hökuməti 1828-ci il fevralın 10-da Təbrizdən cənubdakı Türkmənçay kəndində barışıq imzaladı. Gülüstan sülhünə görə Rusiyaya qatılan torpaqlardan başqa İrəvan və Naxçıvan xanlıqları da Rusiyaya verildi. Müqaviləyə görə İran 20 milyon manat gümüş(manat) ödəyəcək və rus ordusu cənubda qalacaqdır. Rusiya Xəzər dənizində hərbi donanma saxlamaq hüququnu qazandı.

Müqaviləyə görə ermənilərin maneəsiz İrandan və başqa yerlərdən Azərbaycana köçürülməsinə icazə verilirdi. Təsadüfi deyildir ki, 1828-1830-cu illər ərzində İran və Türkiyədən Zaqafqaziyaya 124 mindən cox erməni köçürülmüşdür. Onların əksəriyyəti Qarabağda və İrəvanda yerləşdirilmişdir. Ermənilərin köçürülməsi sonrakı illərdə də ardıcıl olaraq davam etdirilmişdir. Beləliklə, Azərbaycanın bölüşdürülməsinin ikinci mərhələsi başa çatdi.

Şimali Azərbaycanın Rusiyanın tərkibində qalması və Cənubi Azərbaycanın İranın bir tərkib hissəsi olduğunun qanunsuz təstiqlənməsi ilə Azərbaycan xalqı öz dövlət müstəqilliyini itirdi və ən əsası iki yerə parçalandı. Çarizmin və İran işğalçılarının törətdiyi bu tarixi ədalətsizlik çox təəssüf ki, indiyə kimi də davam etməkdədir. XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın Rüsiya tərəfindən işğalının ən mürtəce nəticələrindən biri də ermənilərin kütləvi şəkildə Şimali və Qərbi Azərbaycanın İrəvan, Naxçıvan, Qarabağ, Zəngəzur, Gəncə və başqa bolgələrinə köçürülməsi idi. XX əsrin əvvəllərində çar məmurlarından biri məşhur Qafqazşünas N.Şavrov qeyd edirdi ki, hal-hazırda (1911-ci ildə) cənubi Qafqazda yaşayan 1 mil. 300 min erməninin 1 mln. nəfərindən artığı yerli sakinlər sırasına aid deyildir və bu bizim tərəfimizdən buraya köçürülmüşdür. Beləliklə, Azərbaycanın bölüşdürülməsinin ikinci mərhələsi başa çatdı. İşğaldan sonrakı illərdə Şimali Azərbaycanda Şəki, Şirvan, Qarabağ və s. xanlıqların nöminal müstəqilliyinə son qoyuldu. Gəncə, Bakı, Quba xanlığı da işğalın gedişində ləğv edildi. Azərbaycanın müstəmləkəyə çevrilməsi həmçinin feodal istismarı, ağır vergilər xalqın narazılığına səbəb oldu. Bütün bunlar silahlı iğtişaşlara gətirib çıxartdı. 1826-cı ildə Gəncədə, 1830-cu ildə Çar Balakəndə, 1831-ci ildə Talış əyalətində, 1837-ci ildə

Qubada, 1838-ci ildə isə Şəkidə müstəmləkə zülmünə qarşı üsyanlar baş vermişdir. Üsyanlar komendantların özbaşınalıqlarına, müstəmləkəçilik siyasətlərinə son qoyulmasına qarşı yönəldirilmişdir. Bu üsyanlar amansızlıqla yatırıldı. Çar hökuməti Azərbaycanda komendant üsulunu ləğv etməyə(1840),bir sıra inzibati və aqrar islahatlar keçirməyə məcbur oldu.

XIX yüzilliyin 50-60-cı illəri Azərbaycanda feodal sosial-iqtisadi münasibətlərin süquta uğraması və yeni kapitalist münasibətlərinin inkişafı ilə ayın 14-də Azərbaycanda keçirilən kəndli islahatları kənd təsərrüfatında və sənayedə kapitalist münasibətlərinin inkişafını sürətləndirdi. Kapitalist istehsalı daha da genişləndi. Rusiyada, o cümlədən, Bakıda və Azərbaycanın başqa yerlərində fəhlələrin təşəkkülü və kapitalist ziddiyyətlərinin kəskinləşməsi, milli müstəmləkə zülmü, sinifi mübarizənin, milli azadlıq hərakatının genişlənməsinə səbəb olmuşdur. XX yüzilliyin əvvəllərində Azərbaycanda bir sıra siyasi partiyalar və ictimai təşkilatlar meydana gəlmişdi. 1914-cü ildə başlayan birinci Dünya müharibəsi Azərbaycanın iqtisadiyyatına da mənfi təsirlər göstərmiş, ölkədə siyasi vəziyyət son dərəcədə gərginləşmişdi. 1916-cı ilin sonu 1917-ci ilin əvvəllərində Rusiyada yaranmış gərgin vəziyyət ölkədə fevral inqilabına gətirib çıxartdı və 1917-ci il fevralın 27-də baş verən inqilab çar müfləqiyyətini devirdi.

***Mövzuya dair aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***

1. Azərbaycan tarixi, VII cilddə, IV-V cildlər, Bakı 1999
2. Z.Bunyadov Azərbaycan tarixi, Bakı 1994
3. İ.Əliyev Azərbaycan tarixi, Bakı 1993
4. M.İsmaylov Azərbaycan tarixi, Bak 1993

5. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2005
6. R.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007
7. R.Cəlil oğlu Ömrün Qarabağ səhifələri, Bakı 2009

## *VII MÖVZU: AZƏRBAYCAN XX ƏSRDƏ; SIYASI, SOSIAL-IQTISADI VƏ MƏDƏNI HƏYATDA DƏYIŞIKLIKLƏR*

## P L A N

1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-cı illər)
2. Şimali Azərbaycan Sovet imperiyasının tərkibində.
3. Azərbaycan II Dünya müharibəsi və müharibədən sonraki illərdə.

Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçiliyimiz tarixində özünəməxsus yeri və rolu olmuşdur.

Rusiya imperiyasında baş verən fevral burjua demokratik inqilabından sonra Rusiyanın demokratik-federativ əsaslarla qurulacağını güman edən Azərbaycanın qabaqcıl ziyalıları belə bir dövlət tərkibində milli muxtariyyat uğrunda mübarizə aparırdılar. Lakin, siyası proseslərin sonrakı inkişafı, xüsusilə, 1917-ci il oktyabr inqilabından və 1918-ci il mart soyqırımından sonra

Azərbaycanda müstəqillik və müstəqil dövlətçilik ideyası daha da gücləndi.

Zaqafqaziya seymi buraxıldıqdan sonra onun müsəlman üzvləri mayın 27-də toplaşaraq Milli şura təşkil etdilər ( sədr M.Ə.Rəsulzadə idi ). 1918-ci il mayın 28-də Azərbaycanın Dövlət müstəqilliyinin elan edilməsi haqqında bəyannamə qəbul edildi. Elə həmin gün Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan hökuməti təşkil edildi. İyun ayının 16-da fəaliyyət üçün Azərbaycan hakimiyyəti Gəncəyə köçdü. Hərbi yardim üçün Osmanlı türk dövlətinə müraciət olundu. Azərbaycana hərbi yardım göstərən Nuru paşanın başcılıq etdiyi Osmanlı orduları azərbaycanlıların qırılmasının qarşısını aldılar. Rus və erməni daşnaq qüvvələri ilə mübarizədə xeyli şəhid verdilər. Sentyabrda Bakını erməni-rus işğalından azad etdilər. 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin beş hökumət kabineti olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti müstəqil dövlətə məxsus atributlara üç rəngli bayrağa, gerb və himnə malik olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin 114 min kv.km-ə qədər ərazisi və ona məxsus sərhədləri var idi. 1918-ci ildə dekabrın 7-də Ə.Topçubaşovun sədrliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti yaradıldı. Azərbaycanın milli ordusu və hərbi donanması təşkil olundu. 1918-ci ilin iyun ayında Azərbaycan türkcəsi dövlət dili elan edildi. Parlamentin qərarı ilə orta və ali təhsil sisteminin təşkilinə başlanıldı. Belə ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalq maarifi sahəsində xeyli işlər görüldü. İbtidai və orta məktəblər üçün dərsliklər çap

edildi. Yeni məktəblər açıldı. Bu dövrdə Bakı Dövlət Universiteti təşkil edildi. 1919-1920-ci ildə 100 nəfər tələbənin dövlət hesabına xarici ölkələrə oxumağa göndərilməsi haqqında qərar verildi.

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin yanvarın 11-də Paris sülh konfransında böyük dövlətlər tərəfindən tanınmışdı. Lakin, Azərbaycan Xalq Cümhuriyyəti uzun müddət Sovet Rusiyası tərəfindən tanına bilmədi. Öz sələfi Çar Rusiyası kimi işqalçılıq siyasəti yeridən kommunist rejimi müxtəlif bəhanələrlə müharibə vəziyyəti yaratdı və Azərbaycan Xalq Respublikası hökumətinin sülh danışıqlarına başlamaq haqqında müraciətlərinə qəsdən məhəl qoymadı.

1920-ci il aprelin 27-dən 28-nə kecən gecə Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Bakı şəhəri qeneral Livandovskinin, Kirov və Mikoyanın başçılığ etdikləri XI Qırmızı rus ordusu tərəfindən işgal edildi və Milli Müstəqil Respublika devrildi. 1920-ci ilin aprelin 28-də Azərbaycanda Sovet hökuməti - Azərbaycan SSR-ı quruldu. 1920-ci ilin aprel çevrilişindən sonra Şimali Azərbaycanda 1920-ci ilin fevralında yaranan Azərbaycan Kommunist Partiyasından başqa digər partiyalar qadağan edildi. Gəncə, Qarabağ, Zaqatala, Lənkəran və digər Azərbaycan torpaqları XI Qırmızı ordu tərəfindən işğal olundu. Qubada, Qarabağda, Qaryagində, Şəmkirdə və digər yerlərdə Sovet rejiminə qarşı üsyanlar baş verdi. Gəncədə, Tərtərdə, Ağdamda, Şuşada, Qaryagində və Zaqatalada da başlayan silahlı üsyanlar XI Qırmızı ordu tərəfindən qəddarlıqla yatırıldı. Üsyançılarla yanaşı

minlərlə dinc əhali, uşaq, qadın, qoca məhv edildi.(bax R.Cəlil oğlu Ömrün Qarabağ səhifələri, Bakı 2009, səh. 14)

Azərbaycan bolşeviklərinin də bir hissəsi bu üsyanları yatırılmasında fəallıq göstərdiklərinə görə orden, medallarla təltif edildilər. Həmid Sultanov Gəncə üsyanının yatırılmasına görə orden, medalllarla təltif edildi (bax İ.Məmmədov Azərbaycan tarixi Bakı 2005, səh.356).

Minlərlə ziyalı və elm adamları öldürüldü, həbs edildi və təqib edildi. 1922-ci ilin martında Azərbaycan SSR ZSFSR-in, həmin ilin dekabrında isə SSRİ tərkibinə rəsmən daxil edilərək tamamilə müstəqilliyini itirdi.

7 iyul 1923-cü ildə Mərkəzi Sovet hökumətinin köməyi ilə erməni ziyalıları Azərbaycanın tərkibində qeyri-qanuni Qondarma Dağlıq Qarabağ Muxtar Vilayətini təşkil etdilər, 9 fevral 1924-cü ildə isə Naxçıvan Muxtar Respublikası təşkil edildi. Bununla yanaşı 1920-1930-cu illərdə Azərbaycanın iqtisadi və mədəni həyatında böyük dəyişikliklər baş vermişdir. 1920-1930-cu illərdə Azərbaycan xalqının qəhrəman əməyi ilə neft sənayesində böyük yüksəliş əldə edilmiş, sənayenin yeni sahələri əmələ gəlmiş, elektrik stansiyaları tikilmiş, suvarma kanalları çəkilmiş, kənd təsərrüfatı bir qədər dirçəldirilmişdi. Azərbaycanda ellikcə savadlanma sahəsində böyük nailiyyətlər əldə edilmişdi. Orta ümumtəhsil məktəblərinin, texnikumların, xəstəxana və poliklinikaların, Ali və orta ixtisas məktəblərinin, elmi-tədqiqat və mədəni-maarif müəssisələrinin şəbəkəsi xeyli genişləndirildi. 1922-1929-cu illərdə latın qrafikası əlifbasına keçilməsi başa çatdırıldı. 1939-cu ildən isə SSRİ hökumətinin təhriki ilə latın əlifbası

ləğv ediləndək, kiril əlifbasına keçildi. 1917-ci ildə Çar Rusiyasında baş verən inqilabı çıxışlar təkcə Rus imperiyası çərçivəsində donub qalmamışdır. 1917-ci il Rus inqilabları qonşu olkələrdə də demokratik milli azadlıq hərəkatının başlanmasına təkan verdi. Bu inqilabların təsiri ilə Cənubu Azərbaycanda görkəmli inqilabçı-demokrat Şeyx Məhəmməd Xiyabanının başçılığı altında milli azadlıq hərəkatı getdikcə gücləndi. Cənubu Azərbaycanı bürüyən çıxışlar İranın müxtəlif bölgələrinə də təsir etdi.

7 aprel 1920-ci ildə Ş.M.Xiyabaninin başçılığı ilə Cənubu Azərbaycanda üsyan başladı. Bu üsyanda əhalinin bütün təbəqələri iştirak edirdi. Üsyan nəticəsində Təbriz, Marağa, Ərdəbil, Xoy və digər başğa bölgələrdə də üsyançılar hakimiyyəti ələ keçirdi. İyulun 28-i milli hökumət yaradıldı. Yeni hökumət Ş.M.Xiyabaninin təklifi ilə "Azadstan" adlandırıldı. Ölkədə "Azadstan" adlı qəzet də nəşrə başladı.

Cənubu Azərbaycan üsyançılarının əsas tələbləri İranda burjua-demokratik respublikasının qurulması, Cənubu Azərbaycana İran dövlətçiliyi tərkibində milli-mədəni muxtariyyət hüququ verilməsi, xaricilərin xüsusən ingilislərin ölkədən çıxarılması, milli ayrı-seçkiliyə son qoyulması və s. tələblərdən ibarət idi. Xaricilərin dəstəyinə və yardımına arxalanan şah hökumətinin silahlı quvvələri 12 sentyabr 1920-ci ildə Təbrizə soxularaq sayca üstün quvvələrdən istifadə edərək Azərbaycan milli hökumətini devirməyə müvəffəq oldu. Ş.M.Xiyabani və onun silahdaşlarının bir çoxu öldürüldü və həbs edildi. Bütün bu uğurlara baxmayaraq 1930-cu illərin represiyaları

Azərbaycan millətinə və onun elminə və mədəniyyətinə olduqca böyük zərbələr vurdu. Təkcə 1937-1938-ci illərdə 72 mindən çox insan güllələnmiş, 100 mindən çox insan Sibir və Qazaxstana sürğün edilmişdir. (Azərbaycan tarixi VI cild, Bakı 2000, səh.364)

1937-1939-cu illərdə bütün həyatını Sovet hakimiyyətini yaratmaq və möhkəmləndirməyə həsr etmiş yüzlərlə Azərbaycanlı dövlət və partiya xadimləri S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bunyadzadə, Axundov, Ə.H.Qarayev, H.Sultanov, Q.Vəzirov və başqaları məhv edilmişdir. Azad düşüncəli Azərbaycan ziyalılarına da divan tutulmuşdur. H.Cavid, M.Müşviq, Əli Nəzmi, Əhməd Cavad, T.Şahbazi, S.Muntaz, S.Hüseyn, B.Talıblı, V.Xuluflu, Çəmənzəmənli, B.Çobanzadə və başqaları represiya qurbanı olmuşdur. Ümumən, bu illərdə Azərbaycanda 40 mindən çox adam represiyaya məruz qalmışdır. (İsaq Məmmədov, Siyasi tarix, Bakı 2004, səh.142-143)

## II CAHAN MÜHARİBƏSİ

İkinci Dünya müharibəsi (1939-1945). Bu müharibədə bəşəriyyətin XX əsrdə üzləşdiyi ən dəhşətli dövr olmuşdur. Yeni dünya müharibəsinə ciddi hazırlaşan faşist dövlətləri, xüsusən onlara başçılıq edən Hitler Almaniyası gözlənilmədən müharibəyə 8 gün qalmış 1939-cu ilin avqust ayının 23-də SSRİ ilə 10 il müddətinə bir-birinə hücüm etməmək haqqında müqavilə imzaladı. Bununla

yanaşı tərəflər gizli olaraq 1939-cu ilin 23 avqust müqaviləsinə əlavə protokolda imzaladılar.

1939-cu il 23 avqust tarixli Alman-Sovet sazışi Hitler Almaniyasının hələ çoxdan hazırladığı Polşaya hücüm planının reallaşdırılmasına imkan yaratdı. Beləliklə, 1939-cu ilin sentyabr ayının 1-də Almaniya Polşanın üzərinə hücuma keçdi. Müxtəlif fitnəkarlıqla hücuma keçən Almaniya dövləti sərhədləri pozaraq qonşu Polşa üzərinə 57 diviziya (1,5 mln.insan), 2500 tank, 200 təyyarə göndərdi. (Bax İ.Məmmədov Siyasi tarix, Bakı 2004, səh.176)

Sentyabrın 3-də İngiltərə, Fransa Almaniyaya müharibə elan etdilər.Bununla da II Dünya müharibəsi başlandı. Beləliklə, müharibənin ilk ilində faşist Almaniyası Polşaya qarşı çoxdan hazırladığı A.Hitler tərəfindən təsdiq edilmiş məşhur "Vays"(yə "Ağ plan") planını sentyabrda başa çatdırdılar ( Bax Siyasi tarix, II hissə, Bakı 1995, səh.6)

II Cahan Müharibəsi tarixini 3 mərhələyə bölmək olar: birinci müharibənin ilk mərhələsi (1939-cu il sentyabr - 1942-ci il iyun); ikinci müharibənin gedişində əsaslı dönüş (1942-ci il iyun - 1944-cü il yanvar); üçüncü müharibənin başa çatması: (1944-cü il yanvar - 1945-ci il sentyabr).

Almaniya hələ 1940-cı ilin ikinci yarısında SSRİ-na hücum etmək planını hazırlamağa başlamışdır. Ona simvolik olaraq "Barbarossa"adı verilmişdir. Bu ildırım sürətli müharibə planı adlandırılırdı. Almaniya 1941-ci il iyunun 22-də, 1939-cu il avqustun 23-də 10 il müddətinə

bağlanan müqaviləni pozaraq 190 diviziya ilə SSRİ üzərinə hücuma keçdi. Bu Sovet dövrü tarixinə Böyük Vətən Müharibəsi kimi daxil olmuşdur. Müharibənin ilk dövründə SSRİ qoşunları məğlubiyyətə uğradılar. Çünki, faşist Almaniyası hərbi cəhətdən SSRİ-dən 1,5 - 2 dəfə güclü idi. O tam silahlanmışdı. Bu çətin dövrdə Azərbaycan xalqı İkinçi Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə qəhrəmanlıq nümunələri göstərmişdir.

Azərbaycan xalqı 1418 gün davam edən Böyük Vətən Müharibəsi adlanan Sovet-Alman müharibəsinə 600 mindən çox azərbaycanlı səfərbər edilmişdir. Onlardan təxminən 60 %-dən çoxu geri qayıtmamışdır (Azərbaycan tarixi, 2003, səh.17-18)

Azərbaycan oğul və qızları faşizmə qarşı döyüşlərdə igidliklə vuruşmuşlar. Onlardan bir çoxu fərdi və kütləvi döyüşlərdə igidliklər göstərmişlər. Onlardan 130 nəfəri göstərdikləri qəhrəmanlığa görə ən yüksək mükafata – Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşlər. (Onlardan Həzi Aslanov 2 dəfə Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdür). (Azərbaycan Milli Ensiklopediyası, Bakı 2007, səh. 307)

Azərbaycan oğul və qızları vətənlərindən uzaqlarda da faşizmə qarşı mübarizədə digər xalqların nümayəndələri ilə çiyin-çiyinə vuruşurdular.

Hitler Almaniyasına qarşı müharibədə 77, 223, 271, 402, 416-cı diviziyaları da ardıcıl iştirak etmişdir. 416-cı Taqanroq Diviziyası öz döyüş yolunu Berlinə kimi davam

etdirmişdir (Azərbaycan Milli Ensiklopediyası, Bakı 2007, səh. 308-309)

Müharibə illərində elə bir döyüş əməliyyatı yox idi ki, orada Azərbaycanlıların nümayəndəsi olmasın. Sovet imperiyasının müstəmləkə bölgələrindən biri olan Azərbaycanın bütövlükdə iqtisadiyyatı da müharibə işinə səfərbər edilmişdi. Ölkədə neft, pambıq və digər strateji məhsullar istehsalı müharibənin ehtiyacını ödəməyə xidmət etdirdi. Ölkə neftinin 70-75 %, benzinin 85-90 %-ni Azərbaycan verirdi. 1941-1945-ci illərdə Bakı ölkəyə 75 mln.ton neft, 23 mln. tona yaxın benzin və s. neft məhsulları vermişdir. Bakı həm də hərbi cəbbəxanaya çevrilmişdir. Müharibə dövründə burada 130-dan çox silah və onun hissələri hazırlanırdı. (Bax Azərbaycan Milli Ensiklopediyası, Bakı, səh.309)

İkinci Dünya Müharibəsində faşizm üzərində qələbədə Bakı nefti həlledici amillərdən biri olmuşdur.

1945-ci ilin əvvəllərindən başlayaraq İkinci Dünya müharibəsinin başa çatdırılması mərhələləri başlanmışdır. Müharibənin ən başlıca göstəricisi və yekunu faşist-militarist bloku Almaniya, İtaliya, Yaroniya və onun tərəfdarlarının tamamilə məğlubiyyətə uğradılmasıdır. Antifaşist koalisiyasının ümumdünya tarixi qələbələr əldə etməsidir. Dünya əhalisinə böyük bədbəxtçilik gətirən II Dünya müharibəsi 1945-ci ilin sentyabr ayının 2-də başa çatdı.

XX əsrin ən böyük faciəsi olan bu müharibə təxminən 60 milyona yaxın insanın faciəli ölümünə və 90 milyondan çox adamın yaralanmasına səbəb oldu. Müharibədən sonra

bütün respublikalarda olduğu kimi Azərbaycanda da xalq təsərrüfatının bütün sahələrində böyük irəliləyişlər əldə edilmişdir. Aparılan araşdırmalar göstərdi ki, keçmiş SSRİ-də cəmi 2 respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilərdi. Bu respublikalardan biri məhz Azərbaycan idi.

***Mövzunu daha ətraflı öyrənmək üçün aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***

1. Azərbaycan tarixi VII cilddə V-VI -VII cildlər
2. M.Ə.Rəsulzadə Azərbaycan cümhuriyyəti, Bakı 1990
3. H.Nəsibzadə Azərbaycan Demokratik Resrublikası, Bakı 1989
4. Z.Bunyadzadə Qırmızı terror, Bakı 1993
5. Q.Mədətov Azərbaycan Böyük Vətən müharibəsində, Bakı 1965
6. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2005
7. T.Qafarov Azərbaycan tarixi 1920-1991, Bakı 1999
8. R.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007
9. Azərbaycan Milli Ensiklopediyası, Bakı 2007
10. R.C.İmanov, V.Həsənov Azərbaycan Xəzər Dəniz Gəmçiliyinin tarixi, Bakı 2003
11. R.C. İmanov Azərbaycanın ərazi bütövlüyünə qəsd – Qondarma Qarabağ vilayəti, Bakı 2005

## *VIII MÖVZU: AZƏRBAYCAN II DÜNYA MÜHARIBƏSINDƏN SONRAKI ILLƏRDƏ (1945-1990)*

## P L A N

1. Müharibədən sonra Azərbaycanda sosial-iqtisadi siyasi inkişaf.
2. Azərbaycan-Ermənistan münasibətləri. Azərbaycanlıların Ermənistandan kütləvi departasiyası.
3. Müharibədən sonra Cənubi Azərbaycanda demokratik və milli azadlıq hərəkatı. Güney Azərbaycan İran İslam inqilabı dövründə.

Qeyd etdiyimiz kimi, müharibədən sonrakı illərdə Azərbaycanın xalq təsərrüfatının bütün sahələrində böyük irəlləyişlər əldə edilmişdir.

İkinci Dünya müharibəsi SSRİ-nin, o cümlədən Azərbaycanın iqtisadiyyatına mənfi təsir göstərmişdir. Müharibənin Azərbaycan iqtisadiyyatına vurduğu ziyanı aradan qaldırmaq üçün iqtisadiyyata əsaslı vəsait qoyuluşu bir necə dəfə artırılmışdır.

Müharibədən sonra 10 il ərzində Respublika ərazisində 108 yeni iri sənaye müəssisəsi tikilib istifadəyə verildi. Neft sənayesində müasir texniki vasitə və texnologiyalar tətbiq edildi ( bax Y.Mahmudov, tarix, Bakı 2007, səh.518)

1948-ci ildə açıq dənizdə Xəzər dənizində dünyada ilk dəfə mədən estakadaları quruldu. 1949-cu ilin noyabrın 7-də Xəzər dənizindəki neft daşlarında ilk neft quyusu fantan vurdu. Beş il ərzində on yeni neft ayırma müəssisələri tikildi.

1955-ci ildə Sovet İttifaqında 5 min metr dərinliyində olan ən dərin neft quyusu Bakıda qazıldı (bax Azərbaycan tarixi VI cild Bakı 2003, səh.25-26)

1945-1965-ci illərdə Azərbaycanda, Sumqayıtda, Qaradağda və Daşkəsəndə bir çox sənaye müəssisələri istifadəyə verildi. Bunlardan Sumqayıt Kimya zavodunu, Ağsu, Şəmkir, Xankəndi, Mingəçevir Su Elektrik Stansiyaları, Qaradağ Sement zavodunu, Sumqayıt Alüminium zavodu, Gəncə Alüminium zavodunu və başqalarını göstərmək olar. Lakin, bu sənaye mərkəzləri salınarkən ekoloji tələblər nəzərə alınmır, nəticədə təbiətə və sağlamlığına ağır zərbə vurulurdu. Müharibədən sonra yəni 1948-50-ci illərdə Azərbaycanlıların tarixi Qərbi Azərbaycan torpaqlarından Ermənistandan zorla köcürülməsi dövlət səviyyəsində həyata kecirilməyə başlandı (bax R.C.İmanov, "Daşkəsən", Bakı 1977, səh.5-6)

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Şurasının verdiyi qərarla başlayan bu proses, 1948-ci il 10 mart tarixli qərarla sistem şəklinə salındı. Bu qərara əsasən 150 minə qədər Azərbaycanlı öz doğma dədə-baba yurdlarından departasiya edildi. Dağlıq bölgələrdən Kür - Araz ovalığına köçürülən yurddaşlarımızdan hər üç

nəfərdən biri yeni şəraitə uyğunlaşa bilmədiklərindən həlak oldular.

Lakin, 50-ci illərdən sonra İmperiya siyasətində nisbətən yumşalma ilə əlaqədar olaraq azərbaycanlıların arasında milli ruhun oyanmasına səbəb oldu.

Respublikada kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması ücün tədbirlər görülməyə başlandı. Hadisənin qedişindən qorxuya düşən Moskva 1959-cu ildə Azərbaycan Kommunist Partiyasının 1-ci katibi İmam Mustafayevi milliyətçilikdə günahlandıraraq işdən azad etdi. Bu vəzifəyə Vəli Axundov gətirildi. Azərbaycan KPMK-nin 1969-cu il iyul plenumunda Vəli Axundov da vəzifədən kənar edildi. Bu vəzifəyə 1967-cı ildən Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri işləmiş bacarıqlı siyasətçi Heydər Əliyev təyin edildi.

H.Əliyev respublikada 500 mindən çox yeni iş yerinin açılmasına nail oldu. İri şəhərlərin əhalisinin Bakı, Sumqayıt, Gəncə, Mingəçevir və s. yerləşdirilməsi məqsədilə yeni yaşayış massivləri, mikrorayonlar salındı.

Kənd təsərrüfatında camaatın gəliri artdı, abad kəndlərin sayı coxaldı. Bu illərdə iqtisadiyyat ilə yanaşı, təhsil, elm, mədəniyyət və səhiyyə də böyük inkişaf yolu keçdi. Bu illərdə şairlərin, ədəbiyyat, incəsənət xadimlərinin yübileyləri qeyd edildi. Azərbaycan dilinin təbliği və tətbiqi genişlənməyə başladı. 1978-81-ci illərdə III cildlik müasir Azərbaycan dili kitabı nəşr olundu. Xalqımızın inkişaf tarixinə dair tədqiqatlar, elmi araşdırmalar dahada gücləndirildi.

II Dünya müharibəsindən sonrakı dövrdə təhsil, mədəniyyət və incəsənət sahəsində də bir çox irəliləyişlər əldə edildi. 1949-cu ildə icbari yeddiillik, 1959-cu ildə icbari səkkizillik təhsilə, 1966-cı ildə isə məcburi on illik təhsilə keçildi. Bakıda teatr institutu (1945), Pedaqoji Xarici Dillər İnstitutu (1948), Politexnik (1950), Rus dili və Ədəbiyyat İnstitutu (1952) açıldı.

1945-ci ildə Respublikada açılan Azərbaycan Elmlər Akademiyası respublikamızda elmin inkişafında böyük rol oynamağa başladı (bax Y.M.Mahmudov və başqaları tarix, Bakı 2007, səh.520)

Respublikada musiqi sənətinin inkişafında Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Arif Məlikovun, Cahangir Cahangirovun, Soltan Hacıbəyovun böyük rolu oldu.

Respublikada ifaçılıq sənətinin inkişafında Xan Şuşinskinin, Bülbülün, Rəşid Behbudovun, Seyid Şuşinskinin, Sara Qədimovanın, Şövkət Ələkbərovanın, Rübabə Muradovanın, Əhməd Bakixanovun, Bəhrəm Mansurovun və s. böyük xidmətləri olmuşdu. Bundan əlavə Azərbaycanda teatrın, rəssamlığın, memarlığın inkişafında da (Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev, Maral Rəhmanzadə, Lətif Kərimov və s.) böyük irəlləyiş oldu (bax R.C.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007, səh.110-111)

Beləliklə, 1921-1990-cı illərdə digər sahələr kimi ümumiyyətlə elm və mədəniyyət,incəsənət sahəsində də Azərbaycan respublikası böyük inkişaf yolu keçmişdir. 70 il ərzində ölkədə savadsızlıq demək olar tam ləğv edilmiş,

tam icbari orta təhsil tətbiq edilmiş, geniş ali məktəb şəbəkəsi, mədəniyyət mərkəzləri yaranmış, minlərlə qəzet və jurnal çap olunmağa başlanmışdı.

1960-1970-ci illərdə Respublikada Milli dirçəliş, müstəqillik ideyaları yayılmaqda idi. O zaman Əbülfəz Elçibəyin rəhbərliyi ilə gənclər arasında milli şüurun oyanmasına xidmət edən siyasi təbliğat işləri aparılırdı. O zamandan ölkəmizdə ana dilinin sıxışdırılması, 1923-cü ildə yaradılan qondarma DQMV-nin Ermənistana verilməsi kimi erməni millətçilərinin fikirləri pislənilirdi. Bununla əlaqədər olaraq respublika rəhbərliyi Dağlıq Qarabağı daim nəzarət altında saxlayırdı. Bu məqsədlə Heydər Əliyevin təşəbbüsü ilə 1969-cu ildə Xankəndində Azərbaycan Pedaqoji İnstitutunun filialı, 1974-cü ildə isə müstəqil fəaliyyət göstərən Xankəndi Dövlət Pedaqoji İnstitutunun açılmasına nail olundu. 1979-cu ildə isə Ağdam-Xankəndi dəmir yol xətti cəkildi. Məhz buna görə də Heydər Əliyev Azərbaycanda olduğu dövrdə ermənilər açıq çıxışlardan həmişə çəkinirdilər (bax R.C.İmanov Qondarma Dağlıq Qarabağ Muxtar Vilayyətinin tarixindən, Bakı 2006, səh.158).

H.Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə (1969-1982) idarəçiliyin möhkəmlənməsi, kadrlara qarşı tələbkarlığın artırılması nəticəsində iqtisadi-sosial sahədə böyük nailiyyətlər əldə edildi. Mərkəzdəki nüfuzundan istifadə edərək respublikaya daha çox vəsait ayrılmasına nail oldu. Onun dövründə respublikada 250-dən çox zavod, fabrik və istehsalat sexləri istifadəyə verildi. Bəhs edilən dövrdə Neft sənayesində olan geriliyi aradan qaldırmaq

üçün cəhdlər edildi. Xəzərdə "28 aprel", "Bahar", "Günəşli" və s. zəngin neft-qaz yataqları aşkar edildi. Bu dövrdə dənizdə 2800-6500 metr dərinliyində neft quyuları qazılmağa başlanıldı. 1983-cü ildə Qroznıy-Bakı neft kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan SSRİ-nin vahid neft kəmərinə daxil oldu. O dövrdə yəni 1990-cı illərin əvvəllərində respublikada 1026 sənaye müəssisəsi var idi (Azərbaycan tarixi, Bakı 2007, səh.522-523)

1970-1980-cı illərdə Respublikada üzümçülük, pambıqçılıq, taxılçılıq, meyvə-tərəvəzçilik sahələri xeyli genişləndirildi. 1970-1980-cı illərdə əhalinin içməli su ilə təhcizatını yaxşılaşdırmaq üçün Kür su kəməri işə salındı. Bakıda Dəniz vağzalı, Respublika sarayı, Moskva mehmanxanası, Gülüstan sarayı, yeni zoopark, örtülü idman kompleksləri, bir çox rayonlara qaz kəmərləri çəkildi. Artıq 90-cı ilin əvvəllərində Respublikanın şəhər və kəndlərinin 70 % əhalisi qaz yanacağından istifadə edirdi.

60-80-ci illərdə respublikada ali təhsil sisteminin inkişafna mərkəz xüsusi diqqət yetirirdi. Artıq 80-ci ilin sonunda respublikada 17 ali məktəb, 77 orta ixtisas məktəbi var idi. Göründüyü kimi Azərbaycanda təhsil sistemi inkişaf edirdi. Ümumiyyətlə, təhsil sistemində 15 milyona qədər şagird, ali təhsil məktəblərində isə 100 mindən çox tələbə təhsil alırdı. Respublikada 125 elmi idarə, 23 min nəfərdən çox elmi işçi, on mindən çox alim var idi (Azərbaycan tarixi, 7-ci cild, Bakı 2007, səh.231-232)

1987-ci ildə Bakıda Kosmik tədqiqatlar elm-istehsalat birliyi fəaliyyətə başladı.

Məşhur neftçi alim Fərman Salmanovun rəhbərliyi altında Qərbi Sibirin neft və qaz yataqları kəşf olundu. O təkcə Tümen vilayətində 20-dən çox neft yataqlarının kəşf olunmasında iştirak etdi. İctimai elmlər sahəsində Ziya Bunyadov kimi alimlər tarixi saxtalaşdıranlara qarşı öz fikirlərini açıq şəkildə bildirdilər.

Göstərilən dövrdə Nizaminin, Xəqaninin, N.Tusinin, Ü.Hacıbəylinin, M.Maqamayevin, H.Cavidin və Aşıq Ələsgərin yubileyləri keçirilmiş və Azərbaycan Milli teatrının 100 illiyi qeyd olunmuşdu. Bu dövrdə Azərbaycan mətbuatının inkişafı irəliləyişlərlə əlamətdar oldu. Respublikada 168 adda qəzet, 91 adda jurnal və hər il 130 adda kitab çap olunurdu. Azərbaycan radiosu və televiziyası xeyli inkişaf etmiş. Azərbaycan beynəlxalq radiosu təsis edilmişdi. Bu dövrdə İ.Şıxlı, B.Vahabzadə, İ.Hüseynov, İ.Əfəndiyev, Anar, Elçin, V.Səmədoğlu və s. yazıçılar xalq tərəfindən sevilən əsərlər yaratmışlar.

Azərbaycan incəsənətinin digər sahələrində də mühüm irəliləyişlər əldə edildi. Bəstəkarlardan Şəfiqə Axundova, Rauf Hacıyev, Emin Sabit oğlu, Ağabacı Rzayeva, Polad Bülbül oğlu, müğənnilərdən Zeynəb Xanlarova, Müslüm Maqomayev, Rübabə Muradova, Lütviyar İmanov, Vaqif Mustafazadə və s. Azərbaycan musiqisinin inkişafında böyük iş gördülər. Görkəmli heykəltəraşlardan Fuad Əbdürrəhmanov, Ömər Eldarov, C.Qaryağdı və başqaları olduqca seçilən əsərlər yaratdılar

(bax R.İmanov, Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007, səh.108-109)

İkinci Dünya müharibəsi bir çox ölkələrdə olduğu kimi yaxın qonşumuz olan İranın, o cümlədən Cənubi Azərbaycanın ictimai-siyasi durumuna güclü təsir göstərdi. Müharibənin əvvəllərində İran hökuməti öz bitərəfliyini elan etsə də, Rza şah başda olmaqla hakim dairələr açıq faşistpərəst mövqe tutmuş, ölkəni Almaniya kəşfiyyatının fəaliyyət meydanına çevirmişdilər. SSRİ hökuməti 1921-ci ildə bağlanmış Sovet-İran müqaviləsinə əsaslanaraq 1941-ci ilin avqustunda öz qoşunlarını İrana yeritdi.

Az sonra İrana qoşun çıxaran ingilislər də İranda və Cənubi Azərbaycanda yerləşdilər. Bu vəziyyətdə 1941-ci ildə İranda Rza şahın hərbi polis rejimi iflasa uğradı. O oğlunun hesabına hakimiyyətdən əl çəkdi.

Beləliklə, Cənubi Azərbaycanda bütünlüklə İranda 1941-1946-cı illərdə Cənubi Azərbaycanda demokratik və milli azadlıq hərəkatı getdikcə genişlənməyə başladı. 1941-ci ilin sentyabr-oktyabr aylarında Təbrizdə geniş xalq kütlələrinin mitinq, yığıncaq və nümayişləri keçirildi. Sentyabrın 29-da Tehranda İran Xalq Partiyası (İXP) yaradıldı və xalq arasında fəaliyyətini genişləndirdi. (bax R.C.İmanov, İran və Azərbaycan II dünya müharibəsindən sonraki illərdə, Bakı 2000-ci il)

Demokratik hərəkatın 1941-1945-ci ilini əhatə edən birinci mərhələsində bahalıq və möhtəgirliyə son qoyulması, rüşvətxorluğa qarşı mübarizə aparılırdı. Demokratik hərəkatın son mərhələsində milli demokratik qüvvələr mürtəce İran hakimiyyətinə qarşı mübarizə

aparmaq üçün 1945-ci ilin sentyabrında Seyid Cəfər Pişəvəri (1892-1947) başda olmaqla Azərbaycan Demokratik partiyasının yaradılması haqqında bəyanətlə xalqa müraciət etdilər.

Partiyanın proqramında İran dövləti tərkibində Azərbaycana inzibati-təsərrüfat, mədəni-müxtariyyət verilməsi, bütün İranın siyasi həyatının demokratikləşdirilməsi, iqtisadi-ictimai islahatların keçirilməsi irəli sürülürdü (bax. R.C. İmanov İran və Azərbaycan II Dünya müharibəsindən sonrakı illərdə, Bakı 2000, səh.44-45)

1945-ci ilin oktyabrında ADR-nın I qurultayında Pişəvəri başda olmaqla mərkəzi komitə seçildi. Mərkəzi hökumətin demokratiyaya qarşı hücuma keçməsini görən ADP açıq şəkildə fədai dəstəsi yaratmağa başladı. Beləliklə, 1945-ci ilin dekabrın 12-də toplaşan Milli məclis S.C.Pişəvarinin başçılığı ilə Milli hökumət yaratdı. Milli hökumət zəhmətkeş əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa başladı. Azərbaycan dili Dövlət dili haqqında qanun verdi. Təbriz Universiteti təsis edildi. Hərəkat İranın digər bölgələrinə də təsir etməyə başladı.

Bundan qorxuya düşən İran rejimi bu hərəkatı boğmaq üçün tədbirlər görməyə başladı. ABŞ və İngiltərənin köməyi ilə BMT "İran məsələsinə" baxılmasına nail oldu. BMT qərarı ilə Sovet qoşunları İrandan çıxarıldı. Bundan istifadə edən İran hökuməti xaricilərin dəstəyi ilə Azərbaycana qoşun yeritdi. Fədai qoşunları ilə İran ordusu arasında qanlı döyüş başladı. Lakin, Milli hökumət vətəndaş müharibəsinin qarşısını

almaq məqsədi ilə silahlı qüvvələrə döyüşü dayandırmaq göstərişi verdi. İran qoşunları dekabrın 12-də müqavimətsiz Təbrizə daxil oldu. Minlərlə fədai güllələndi, həbs olundu. Milli hökumətin rəhbərləri güllələndi və asıldı. Çoxlu insan qaçqın düşdü.

Beləliklə, 1941-1945-ci illər azadlıq hərəkatı məğlubiyyətə uğradı. S.C.Pişəvəri 1947-ci ildə müəmmalı şəkildə Sovet Azərbaycanında avtomobil qəzasında həlak oldu.

Cənubi Azərbaycanda Milli demokratik və azadlıq hərəkatı qanla yatırılsa da bu şah rejiminə və xarici müstəmləkcçlərə qarşı xalqın inqilabı mübarizəsini dayandıra bilmədi. İnqilabi hərəkat sonralar yenə alovlanmağa başladı. Şah hökuməti İranda sosial gərginliyi ləğv etmək məqsədi ilə 1960-1970 illərdə burada tarixə "Ağ inqilab" adı ilə daxil olan islahatlar keçirdi. Bu aqrar islahatla dövlət kəndlilərin dövlətdən və iri torpaq sahiblərindən torpaq sahələri satın almasına kömək etməsi kənddə kapitalizmin inkişafına yardım göstərilməli idi.

Lakin, 1977-ci ilin dekabrında Təbrizdə Milli hökumətin yaranmasının il dönümü münasibətilə nümayiş keçirildi. Fevralın 18-də Təbrizin dini başçılarının çağırışı ilə 10 mindən çox təbrizli müxtəlif rayonlarda küçələrə çıxdı, dini etiraz nümayişi mövcud quruluşa qarşı üsyana çevrildi. Lakin, hökumət Təbriz üsyanını qəddarlıqla yatırdı. Çünki, bu üsyan şah rejiminə və onu dəstəkləyən qərb rejiminə qarşı çevrilmişdi. Beləliklə, 29 bəhmən (18 fevral) Təbriz üsyanı 1978-1979-cu illər inqilabının ilk müjdəçisi oldu. Cənubi Azərbaycanda inqilabı çıxışların

ara verməməsi, hərəkatın rəhbərlərinin çağrışı ilə "Şah getməlidi" təkidli tələbləri ilə xalqın təzyiqi nəticəsində şah Məhəmməd Rza Pəhləvi 1979-cu ilin yanvarında İrandan qaçdı. Fevralın 11-də Ayatulla Xomeyni Parisdən Tehrana gəldi. Beləliklə, 1979-cu ilin fevralın 11-də Tehranda da qalib gələn inqilab fevralın 16-da Cənubi Azərbaycanda başa çatdı. 1979-cu il İran inqilabı nəticəsində aprel ayının 1-də 2500 illik şah hakimiyyətinə son qoyuldu, ölkə İran İslam Respublikası elan edildi. Bununla da inqilabın milli-demokratik istiqamətdə inkişafının qarşısı alındı, din xadimləri hakimiyyətə gəldi.

***Mövzunu daha ətraflı öyrənmək üçün aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***

1. H.Ə.Əliyev Müstəqilliyimiz əbədidir, I - II cild, Bakı 1997
2. Azərbaycanın Milli Ensiklopediyyası, Bakı 2007, səh. 309-310
3. Azərbaycan tarixi VII cilddə, VII cild, Bakı 2003
4. T.Qafarov Azərbaycan tarixi 1920-1991, Bakı 1999
5. T.Mustafazadə Ümumi tarix IV cild, Bakı 1998
6. Q.Mədətov Azərbaycan Böyük Vətən Müharibəsi illərində
7. R.İmanov Azərbaycan və İran II Dünya müharibəsindən sonrakı illərdə, Bakı 2000

8. R.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007.
9. Hacıyev H, R.İmanov və b. Müharibədən sonra Azərbaycanın sosial-iqtisadi və siyasi inkişafı, Bakı 1999
10. Siyasi tarix (mühazirə kursu) II hissə, Bakı 1995.

## IX. MÖVZU: MÜSTƏQIL AZƏRBAYCAN RESPUBLIKASININ YARANMASI VƏ FƏALIYYƏTI

**P L A N**

1. Azərbaycanın müstəqilliyi uğrunda mübarizə. Dövlət müstəqilliyinin bərpa olunması.
2. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq müharibəsi və onun ağır nəticələri.
3. Azərbaycan Respublikasında siyasi sabitliyin bərpası. İqtisadi və mədəni sahədə görülən tədbirlər.

XX əsrin 80-ci illərinin ortalarında Sovet İmperiyasının iqtisadi, siyasi və mədəni həyatında böhran qabağı vəziyyət yaranmışdı. 80-ci illərin ikinci yarısında hakim kommunist partiyası Sovet imperiyasını mövcud böhran qabağı vəziyyətdən xilas etmək üçün bir sıra cəhdlər göstərdi. Bu məqsədlə 1985-ci ildə irəli sürülmüş "yenidənqurma" siyasəti özünü doğrultmadı, əksinə ölkədə siyasi böhranı daha da dərinləşdirdi. Ölkə rəhbərliyi Sovet imperiyasının tərkibinə daxil olan xalqların müstəqillik hərəkatının qarşısını almaq məqsədilə müxtəlif pozucu tədbirlərə, o cümlədən milli münaqişələrin qızışdırılmasına başlanıldı.

Azərbaycanda qondarma "Dağlıq Qarabağ problemi" yenidən qızışdırıldı. 1987-ci ildən başlayaraq ortaya atılan qondarma "Dağlıq Qarabağ problemi" Azərbaycan xalqı tərəfindən elə ilk gündən böyük etirazla qarşılandı. 1988-ci ilin martında SSRİ rəhbərliyi Dağlıq Qarabağın sosial-

iqtisadi inkişafının sürətləndirilməsi haqqında xüsusi bir qərar qəbul edərək, əslində Dağlıq Qarabağın Azərbaycanın tabeçiliyindən çıxarılmasının təməlini qoydu. 1989-cu il dekabrın 1-də isə Ermənistan SSR Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. Ermənistanın bu təcavüzkar siyasətinə qarşı öz etirazını bildirən xalqın üzərinə SSRİ rəhbərliyi fövqəladə vəziyyət elan etmədən 1990-cı il yanvarın 20-də qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayət edilən qoşun yeritdi. Lakin, bu hadisələr xalqın müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. 1991-ci ilin avqust ayının 30-da Ali Sovetin sessiyasında Azərbaycan respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə elan edildi (bax R.C.İmanov Azərbaycanın ərazi bütövlüyünə qəsd – Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti, Bakı 2005, səh.223-224)

Azərbaycan Respublikasının Dövlət müstəqilliyini əldə etməsi 80-ci illərin birinci yarısından başlayaraq keçmiş Sovet İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi idi.

1992-1993-cü illərdə Respublikanın o vaxtkı rəhbərliyinin həyata keçirdiyi siyasəti Azərbaycanın siyasi-iqtisadi maraqlarına, onun təhlükəsizliyinə və suveren dövlət hüquqlarının reallaşmasına cavab vermirdi.

Belə ki, keçmiş rəhbərliyin təqsiri üzündən 1992-ci ilin 25-26 fevralda XX əsrin analoqu olmayan ən dəhşətli faciəsi Xocalı soyqırımı baş verdi. Erməni silahlı birləşmələri Xan kəndindəki 366-cı polkun yardımı ilə

Xocalı şəhərini işğal etmiş və Azərbaycanlılara qarşı qırğın törətmişlər. 1000-ə qədər insan ölmüş, 487 nəfər yaralanmış, 1275 nəfər girov götürülmüşdü və onlarla adam itkin düşmüşdür. 8 ailə tamamilə məhv edilmişdir. 1993-cü ilin iyununda xalqın tələbi ilə Azərbaycanda hakimiyyət dəyişikliyi baş verdi. H.Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə gəldi. Belə ki, o 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Elə bu vaxtan da Respublikada hakimiyyət boşluğuna son qoyuldu, respublikanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr və parçalanma meylləri zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edildi (bax R.C.İmanov Azərbaycanın ərazi bütövlüyünə qəsd - Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti, Bakı 2005, səh.228-229)

1994-cü ilin mayında Ermənistan müharibəsində atəşkəsə nail olundu. 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi" adlandırılan ilk neft kontraktı imzalandı. 1994-cü ilin 5-6 dekabrında ATƏM-in Budapeşt zirvə torlantısında Qarabağ münaqişəsi ilə bağlı qətnamə qəbul olundu.(Azərbaycan Milli Ensiklopediyası, 2007, səh.8)

1995-ci ilin noyabrn 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu. Noyabr ayında (27-si) Azərbaycan Respublikasının yeni Konstitusiyası qüvvəyə mindi. 1996-cı il fevralın 1-də Azərbaycan gənclərinin 1-ci forumu keçirildi. 1996-cı ilin noyabrında Azərbaycanın dahi şairi M.Füzulinin anadan

olmasının 500 illiyinə həsr olunmuş yübiley tədbirləri keçirilmişdir.

2-3 dekabr 1997-ci ildə ATƏT-in Lissabonda kecirilmiş zirvə toplantısında Azərbaycanın ərazi bütövlüyünün tanınması haqqında təşkilatın 53 üzvü adından bəyanət qəbul edilmişdir (bax Tarix, 2007, səh. 548-549)

1998-ci il martın 26-da prezident H.Əliyev «Azərbaycan genosidi haqqında » fərman vermiş və martın 31-də Azərbaycanlıların soyqırımı günü elan edildi. Həmin il oktyabrın 11-də H.Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi.

1998-ci ilin yanvarında Azərbaycan Respublikası Prezidenti Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 illiyinin keçirilməsi haqqında sərəncam vermişdir.

8 sentyabr 1998-ci il Bakıda tarixi ipək yolunun bərpası üzrə Beynəlxalq konfrans keçirilmiş, «Avropa - Qafqaz – Asiya dəhlizinin» inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında əsas çoxtərəfli saziş və Bakı bəyyannaməsi imzalanmışdır.

13 aprel 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev «Atatürk Beynəlxalq Sülh mükafatı» ilə təltif edilmişdir. 12 dekabr 1999-cu ildə Azərbaycanda ilk dəfə bələdiyyələrə seçkilər keçirilmişdir.

1999- cu ildə İstanbulda Bakı - Ceyhan ixrac neft kəməri haqqında saziş imzalandı. 2000-ci ildə «Kitabi - Dədə Qorqud» dastanının 1300 illiyi təntənəli şəkildə respublikada qeyd edilmişdir.

2001-ci ilin martında Azərbaycan qazının Bakı - Tiblis - Ərzurum qaz kəməri vasitəsi ilə dünya bazarına çıxarılması haqqında Türkiyə ilə saziş imzalandı. Uzunluğu 1030 km olan bu nəhəng layihənin inşasına 2003-cü ilin fevral ayında başlanılmışdır

2001-ci ilin yanvarında Azərbaycan Respublikası Avropa Şurasının tam hüquqlu üzvlüyünə qəbul edilməsi haqqında qərar verilmişdir. (bax Tarix, Bakı 2007, səh.549)

Müstəqillik qazanıldıqdan sonra bütün dünya azərbaycanlılarının milli hüquqlarının qorunmasının təmin edilməsi üçün geniş imkanlar açıldı.

2001-ci ilin 9-10 noyabrında Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Bu qurultay dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların bir araya gətirilmiş istiqamətində atılmış ilk addım idi.

2005-ci ilin yanvar ayında ABŞ Dövlət Departamenti «ABŞ və Dağlıq Qarabağ» başlığlı bəyanət vermişdir. Həmin bəyanətdə göstərilmişdir ki, ABŞ Dağlıq Qarabağı müstəqil qurum kimi tanımır və qəbul etmir. ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıyır. 2005-ci ilin fıevralında «Azəri-Çıraq - Günəşli» yataqlarının azəri hissəsində ilk neft hasilatına başlanıldı.

2006-cı ilin mart ayında Bakıda Dünya Azərbaycanlılarının II qurultayı keçirildi. Qurultay Dünya Azərbaycanlıları arasında birlik və həmrəyliyin yaranmasına böyük kömək göstərmişdir.(bax Azərbaycan Milli Ensiklopediyası, Bakı 2007. səh.335, Respublika qəzeti, mart 2006)

Azərbaycan Respublikası hazırda dünya üzrə 150-ə qədər ölkə ilə iqtisadi və diplomatik əlaqə saxlayır. Ölkədə 70-ə qədər xarici ölkələrin səfirlikləri və daimi nümayəndəlikləri fəaliyyət göstərir. Azərbaycan onlarla beynəlxalq təşkilatların üzvüdür.

***Mövzunu daha ətraflı öyrənmək üçün aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***


1. H Əliyev Azərbaycan XXI əsrin və III minilliyin ayrıcında, Bakı 2001
2. H.Əliyev Qayıdış, Müstəqilliyimiz əbədidir, Bakı 1997
3. Azərbaycanın Milli Ensiklopediyası, Bakı 2007
4. T.Qafarov Azərbaycan tarixi (1920-1991), Bakı 1999
5. Azərbaycan tarixi VII clddə, VII cild, Bakı 2003
6. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2005
7. Ə.Həsənov Azərbaycanın xarici siyasəti, Bakı 1998
8. R.C.İmanov Qondarma Dağlıq Qarabağ Muxtar vilayətinin yaranması tarixindən, Bakı 2006
9. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı 2005
10. Azərbaycanın milli Ensiklopediyası, Bakı 2007
11. H.Məmmədova Xocalı, Bakı 2003
12. R.Cəliloğlu Ömrün Qarabağ səhifələri, Bakı 2009


### *X. MÖVZU: MÜSTƏQIL AZƏRBAYCAN RESPUBLIKASININ DÖVLƏT RƏMZLƏRI*

# P L A N

1. Azərbaycan Respublikasının Dövlət bayrağı.
2. Azərbaycan Respublikasının Dövlət Gerbi
3. Azərbaycan Respublikasının Dövlət Himni.

**MADDƏ 23.** Azərbaycan dövlətinin rəmzləri.

I. Müstəqil Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının dövlət gerbi və Azərbaycan Respublikasının dövlət himnidir.

II. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqü zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdir və qırmızı zolağın ortasında hər iki üzündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir.

III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir.

**MADDƏ 75**

Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə: bayrağına, gerbinə və himninə hörmət etməlidir. (Azərbaycan Respublikasının Konstitusiyası, 2005.)

Tarixi mənbələr, həm də maddi mədəniyyət və incəsənət abidələri göstərir ki, qədimdə Azərbaycan ərazisində yerləşən dövlətlərin müxtəlif rəmzləri və emblemləri və s. olmuşdur.

Məsələn, görkəmli dövlət xadimi və sərkərdə,istedadlı şair Şah İsmayil Xətainin yaratdığı Səfəvi dövlətinin 12 qırmızı zolaqlı baş geyimi rəsmi fərqlənmə nişanı kimi qəbul olunmuşdur. Bununla bərabər "Qırmızı taclı", "Qızılbaş şah" kimi özünəməxsus gerbi də olmuş, Simurq quşu ilə əjdahanın döyüşünü təsvir edən dövlətin rəsmi rəmzi bir növ emblem xarakterini daşımışdır. Hökmdarlara məxsus belə rəmzlər xanlıqlar dövründə də geniş yayılmışdır.

Dövlətin rəsmi fərqləndirici əlamətlərindən biri dövlət bayrağıdır. Dövlət bayrağı eyni zamanda məxsus olduğu dövlətin suverenlik rəmzidir. Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-1920-ci illərdə mövcud olmuş. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılan milli dövlət atributlarındandır ( bax R.C.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007, səh.144)

1918-ci il noyabrın 9-da Bakı şəhərində Fətəli xan Xoyskinin sədrliyi ilə Nazirlər Kabinetinin iclası oldu və burada onun milli bayraq haqqında məruzəsi dinlənildi. Həmin iclasda dövlət bayrağı haqqında aşağıdaki qərar qəbul edildi:

"Yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkiz güşəli ilduzdan ibarət olan bayraq hesab edilsin".

1920-ci il mayın 3-də endirilmiş müqəddəs bayrağımız 70 il sonra 1990-cı il noyabrın 17-də qədim Azərbaycan diyarı Naxcçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Respublikasının Dövlət bayrağı kimi qəbul edilərək yüksəkliklərə qaldırıldı (bax

R.C.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007, səh.145). Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin rəhbəri, görkəmli dövlət xadimi M.Ə. Rəsulzadənin 1920-ci ildə söylədiyi aşağıdakı gözəl sözləri bir daha öz yerini tapdı:

***"Türkün gücü tükənməz,***
***Türkün qolu bükülməz,***
***Bir kərə qalxan bayraq,***
***Bir daha enməz, enməz"***

1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının qanununu" qəbul etdi. Bu qanun ilə 3 rəngli bayrağımız Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq edildi (bax R.C.İmanov Dünya və vətən mədəniyyətindən səhifələr, Bakı 2007) Dövlət bayrağında 3 rəngin ifadə etdiyi və XX əsrin əvvəllərində milli istiqlal ideologiyamızın 3 təməl prinsipini bildirən "türkçülük, islamçılıq və müasirlik" düstrunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadə olmuşdur. 1919-cu ilin aprel ayında parlamentin binası üzərində dalğalanan üçrəngli bayrağa həsr etdiyi "Azərbaycan bayrağına" adlı şerində görkəmli şairimiz Əhməd Cavad yazmışdır:

***Allahın yıldızı, o gözəl pəri***
***Sığınmış qoynunda aya bayrağımız !***

( bax R.C.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007, səh 146-147)

Dövlət möhürlərində, pul nişanlarında, blank və başqa rəsmi sənədlərdə təsvir olunan fərqləndirici nişan dövlət gerbidir. Qəbul olunmuş Azərbaycan respublikasının gerbi Xalq Cümhuriyyəti dövrünün 1920-ci ildə yaradılmış gerbinin təkrarıdır. Dövlət gerbində səkkiz guşəli ulduz və qalxan ölkənin hərbi qüdrətini, xalqın qəhrəmanlıq əzmini ifadə edir. Əks edilən palıd yarpaqları və sünbüllər şöhrət çələngini, quvvəti, bolluğu ifadə edən ənənənin simvoludur. Gerbin mərkəzində şölə saçan alovun mahiyyəti M.Ə.Rəsulzadənin parlamentin ilk açılışındakı nitqində aydın göstərilmişdir. Azərbaycan bir atəş mənbəyidir, vətənimiz hər zaman kəndi sinəsində bir atəşi müqəddəs bəsləmişdir.

Azərbaycan Respublikasının Milli Məclisinin 1993-cü il 19 yanvar tarixli Konstitusiya qanunu ilə Azərbaycan Respublikası dövlət gerbinin rəngi və ağ-qara təsviri təsdiq edildi. 28 may 1918-ci il tarixində Azərbaycanın istiqlaliyyəti elan olunduqdan sonra ADR-in dövlət bayrağı və dövlət gerbi ilə bərabər dövlət himninin də yaradılması və qəbul edilməsi məsələsi qarşıya çıxdı. "Himn" yunanca "təntənəli nəğmə"deməkdir. O siyasi təbliğatda mühüm vasitə olmaqla myəyyən mütəşəkkillik və səfərbərlik rolu oynayır. Himnin ifası əsasən bayram şənlikləri, siyasi nümayişlər, rəsmi dövlət qəbulları, hərbi paradlarda nəzərdə tutulur. Dövlət himninin mətni və melodiyası xalqın sosial təbəqələrinə əsasən olmalıdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dahi bəstəkarımız U.Hacıbəyov iki marş yazmışdır. Onların hər ikisi 1966-cı ildə türk müsiqişünası Etem Ungörükün

Ankarada nəşr etdirdiyi "Türk marşları" kitabında çap olunmuşdur. Beləliklə, yeni himnimizin musiqisi yenə U.Hacıbəyovun oldu. Mətn isə görkəmli şairimiz Əhməd Cavada məxsus olduğu qeyd edildi. Azərbaycan Respublikası Milli məclisinin 1993-cü il 2 mart tarixli qərarı ilə Azərbaycan Respublikası Dövlət himni haqqında əsasnamə təsdiq edildi.

Beləliklə, Azərbaycan Respublikası Dövlət rəmzlərinin statustu 1995-ci il noyabrın 12-də Ümümxalq Referendumunda qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının yeni Konstitusiyasının 75-ci maddəsində deyilir: "Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir".

***Mövzunu daha ətraflı öyrənmək üçün aşağıdakı ədəbiyyatlar tövsiyə edilir:***

1. Azərbaycanın Milli Ensiklopediyası, Bakı 2007
2. Azərbaycan tarixi, VII cildlikdə cild, Bakı 2007
3. R.C.İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr, Bakı 2007
4. İ.Məmmədov Azərbaycan tarixi, Bakı 2005
5. T.Qafarov Azərbaycan tarixi (1920-1991), Bakı 1999
6. A.A.Şükürov "Kulturologiya", Bakı 2003
7. S.Məmmədova "Mədəniyyətşünaslıq", Bakı 2001
8. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı 2005

# *XI MÖVZU : MÜSTƏQIL AZƏRBAYCAN RESPUBLIKASI INTIBAHININ YENI MƏRHƏLƏSI*

## P L A N

1. Çağdaş Azərbaycan intibahının yeni mərhələsi
2. Azərbaycan Respublikası Dünya birliyində

Məlum olduğu kimi 2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasında prezident seçkiləri keçirildi.

Səsvermədə iştirak edənlərin əksəriyyəti 76,84 faizi prezidentliyə namizəd İlham Heydər oğlu Əliyevə səs verdi. Beləliklə, Heydər Əliyevin ləyaqətli varisi gənc siyasətçi İlham Əliyev Azərbaycan Respublikasının yeni prezidenti seçildi. Bununla da Azərbaycan intibahının yeni mərhələsi başlandı.

İlham Əliyev 1961-ci ildə Bakı şəhərində anadan olmuşdur. O, 1982-ci ildə Moskvada Beynəlxalq münasibətlər institutunu, sonra isə aspiranturanı bitirərək, həmin il ali məktəb müəllimi işləmişdir.

SSRİ dağıldıqdan sonra Azərbaycanda əmək fəaliyyətinə 1994-cü ildən ARDNŞ vitse prezidenti təyin olunması ilə başlamışdır. 1995-2000-ci illərdə keçirilən parlament seçkilərində Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının birinci qurultayında (1997) partiya sədrinin müavini seçilmişdir. Milli Məclisin Avropa Şurası parlament Asanbleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri olan cənab İlham Əliyev 2003-cü ilin yanvarında AŞPA-nın vitse-prezidenti və büro üzvü seçilmiş və həmin ilin avqust ayında Respublikanın baş naziri təyin edilmişdir. 1997-ci ildən Milli Olimpiya Komitəsinə rəhbərlik etmiş, 2003 və 2008-ci illərin

oktyabrında Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Siyasi elmlər doktorudur. O, Ümummilli liderimiz Heydər Əliyev məktəbinin davamedicisidir. Onun fəaliyyəti dövründə intibahın yeni mərhələsi milli iqtisadiyyatın daha da güclənməsi, ölkənin xaricdən maliyyə mənbələrindən asılılığının aradan qaldırılması ilə səciyyələnir.

Xalqın dəstəyi Prezident İlham Əliyevin fəaliyyəti sayəsində son beş ildə (2003-2008-ci illərdə) Azərbaycan intibahının yeni mərhələsində yeni zirvələr fəth edilməsi özünü bir daha göstərmişdir. Azərbaycan bu müddətdə öz müstəqilliyini və bölgədə mövqelərini daha da möhkəmləndirmişdir.

Hesabata görə 2008-ci ildə Azərbaycanın valyuta ehtiyatları 2003-cü ilə nisbətən 2 dəfə artaraq, 18 milyard dollar təşkil etmişdir. Bu müddətdə dövlət büdcəsinin mədaxili 2007-ci ilin müvafiq dövrü ilə müqayisədə 71,3 faiz çox olmuşdur. Sözü gedən müddət ərzində neft sektoru üzrə büdcəyə daxil olan vəsaitin həcmi 2,2 dəfə, qeyri neft sektorundan gələn gəlirin həcmi isə 48,4 faiz artmışdır.

Son 5 ildə (2003-2008-ci illərdə) dövlət büdcəsi 10 dəfədən çox artmışdır. Əgər 2002-ci ildə Azərbaycan Respublikasının dövlət büdcəsi 1,2 milyard ABŞ dolları idisə, 2008-ci ildə 15 milyard dollar olmuşdur. Son beş ildə ölkə iqtisadiyyatına 38 milyard manat investisiya qoyulmuşdur. Beləliklə, intibahın yeni mərhələsində Azərbaycan iqtisadiyyatı 2,6 dəfə artmışdır. (bax İ. Məmmədov Azərbaycan tarixi, Bakı, 2009, səh. 300-301).

İntibahın yeni mərhələsində respublikada enerji bazası da güclənmişdir. Beş il ərzində respublikada ümumi gücü 700 MVT olan 8 elektrik stansiyası tikilib istifadəyə verilmişdir. Bundan əlavə intibahın yeni mərhələsində Bakı-Tiblis-Ceyhan

neft kəmərinin tikintisi başa çatdırılmışdır. Artıq Azərbaycan nefti dünya bazarlarına ötürülməkdədir.

Bakı-Tiblis-Ərzurum qaz kəməri də işləməkdədir. İndi bizim 3 neft, 4 qaz kəmərimiz vardır. Bu kəmərlərin məntiqi davamı olaraq Bakı-Tbilisi-Qars dəmir yolunun tikilməsinə başlanılmışdır. Bu tikinti həm respublikamız üçün, həm qonşularımız üçün, həm bölgə üçün və həm də dünya üçün tarixi əhəmiyyətə malikdir.

İntibahın yeni mərhələsində kənd təsərrüfatının inkaşaf etdirilməsi sahəsində müəyyən uğurlar qazanılmışdır. Belə ki, 2003-2007-ci illərdə aqrar bölmədə real artım 4,5 faiz olmuş, 1191 kollektiv 156 kənd təsərrüfat kooperativləri, 2651 kənd fermer təsərrüfatı yaradılmışdır. 2008-ci ildə təkcə taxıl istehsalı əvvəlki ilə nisbətən 400 min ton çoxalmışdır. Son beş il ərzində respublikada iqtisadi artım 2 dəfədən çox olmuşdur.

Bu illərdə respublikada 26641 yeni müəssisə yaradılmış, 766300 yeni iş yeri açılmışdır ki, onun da 548 mini daimi iş yeridir. (bax İ. Məmmədov. Azərbaycan tarixi, Bakı 2009, səh. 306).

İntibahın yeni mərhələsində ali təhsil sahəsindədə çox ciddi irəliləyiş əldə edilmişdir. İndi respublikada 46 ali, 57 orta ixtisas təhsil müəssisəsi fəaliyyət göstərməkdədir.

Uzun müzakirədən sonra 2008-ci il dekabrın sonunda «təhsil haqqında» qanunun qəbul edilməsi Azərbaycan təhsilinin inkişafında mühüm mərhələnin başlamasının təcəssümüdür.

Son beş ildə səhiyyə sahəsində də irəliləyişlər olmuşdur. Səhiyyəyə ayrılan dövlət xərcləri 6 dəfə artaraq 55,3 milyon manatdan 332 milyon manata çatdırılmış, 240-dan çox tibb müəssisəsi, o cümlədən, bütün regionları əhatə edən 12 müasir

tibb məntəqəsi, 46 ambulatoliya-poliklinika, 41 xəstəxana və müalicə mərkəzi tikilib istifadəyə verilmişdir.

2004-cü ildə ilk dəfə Şirvanşahlar sarayı və Qız qalası da daxil olmaqla İçərişəhər tarix-memarlıq komplekslərinin YUNESKOnun «Dünya mədəniyyət irsi» siyahısına salınması da tariximizdə mühüm hadisədir.

Azərbaycan milli müstəqilliyini bərpa etdikdən sonra müstəqil xarici siyasət yürütməyə başladı. Qısa bir vaxtda onu dünyanın əksər dövlətləri tanıdılar. Azərbaycanın dövlət müstəqilliyini ilk olaraq 1991-ci ilin noyabrında Türkiyə dövləti, dekabrda Rumıniya, Pakistan, dekabrın 23-ü İsveçrə, dekabrın 25-də İran İslam Respublikası, 1992-ci ilin yanvarın 23-də ABŞ, aprelin 10-da 109-cu dövlət olaraq Rusiya tanıdı. Artıq 1999-cu ildə Azərbaycanın dövlət müstəqilliyini 116 dövlət tanımışdır. Heydər Əliyev Azərbaycanın rəhbərliyinə gəldikdən sonra xarici siyasətdə də köklü dəyişikliklər baş vermişdir.

Azərbaycan Respublikası dünya birliyinin müstəqil və bərabər hüquqlu dövləti kimi beynəlxalq təşkilat və qurumlarda təmsil olunmuşdur. O, 1991-ci ilin dekabrında İslam Konfransı təşkilatına, 1992-ci ilin yanvarında ATƏM-ə (1994-cü ildən ATƏT) 1992-ci ilin martında BMT-yə, Natonun Şimalı Atlantika Əməkdaşlıq Şurasına, 1997-ci ildə Atlantika Xəbərdarlıq Şurasına, 1995-ci ilin iyununda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına, 1997-ci ilin noyabrında özünün təşəbbüsü ilə təşkil edilmiş CUAM-a, 2001-ci ilin yanvarında Avropa Şurasına, 2002-ci ilin noyabrında NATO-nun Parlament Asanbleyasının üzvlüyünə qəbul edilib.

Azərbaycan Respublikası 200-ə qədər dövlətin üzv olduğu BMT ilə münasibətlərdə müstəsna yer tuturdu.

Azərbaycan Respublikası BMT üzvləri ilə ardıcıl iş aparması sayəsində BMT Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin təhlükəsizliyini təsdiq edən dövr (822, 853, 874 və 884 saylı) qətnaməsinin qəbul edilməsinə nail olmuşdu. BMT-nin təhlükəsizlik Şurasının sözü gedən qətnamətlərdən heç biri hələ də yerinə yetirilməmişdir. (bax. R.C. İmanov Azərbaycanın ərazi bütövlüyünə qəsd Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti, Bakı 2005, səh. 242)

Beynəlxalq təşkilatlardan olan ATƏT də Müstəqil Azərbaycan Respublikasının əməkdaşlıq etdiyi qurumlardan idi. O, 1975-ci ilin avqustunda Fillandiyanın paytaxtı Helsinkdə təsis edilmişdir. Onun məqsədi Avropada təhlükəsizliyi və əməkdaşlığı təmin etmək idi. Onun yekun aktını 35 ölkənin nümayəndələri imzalamışdır. 1986-cı ildə üzvlərin sayı 54-ə çatmışdır. Onun əsas prinsipləri: suverenlik, güc tətbiq etməmək və təhlükəyə yol verməmək, dövlətlərin ərazi bütövlüyünü, mübahisəli məsələlərini dinc yolla həll etmək 1992-ci ilin martında ATƏT-in Şurasının qərarı ilə ATƏT-in himayəsi altında Dağlıq Qarabağ üzrə Minsk konfransı çağırılmışdır. Onun başlıca vəzifəsi Ermənistan-Azərbaycan münaqişəsini nizamlamaqdan, onun həlli üçün müvafiq sənədlər hazırlamaqdan ibarət idi. Dağlıq Qarabağ probleminin həll edilməsi yollarının axtarılması baxımından Azərbaycan üçün ən səmərəlisi ATƏT-in Budapeşt (1994-cü il 5-6 dekabr) və Lissabon (1996 (2-3 dekabr)) Sammitləri olmuşdur.

Azərbaycan Respublikası dünya birliyinin ən nüfuzlu təşkilatlarından biri olan Avrova Şurasına üzv olmaq üçün də ciddi səy göstərmişdir. Çünki, Azərbaycanın bu quruma daxil olması Avropa tərəfindən onun Avropa demokratiyası standartlarına müvafiq dövlət kimi tanınması demək olardı.

Bunu nəzərə alaraq, Bakı hələ 1992-ci ilin yanvarında rəsmi Avropa Şurasına ona «xüsusi dövlət olunan» status verilməsi barədə xahişlə müraciət etmişdir. Lakin, müəyyən səbəblər üzündən, yəni erməni-Azərbaycan münaqişəsi davam etdiyindən xahiş yerinə yetirilməmişdir. Nəhayət, 2000-ci ilin yanvarın 25-də Strazburqda Azərbaycan Respublikasının Avropa Şurasına daxil olması barədə qərar qəbul edilmişdir. Öz işgüzarlığı ilə seçilən nümayəndəliyinin rəhbəri kimi seçilən İlham Əliyev bir qədər sonra 2003-cü ilin yanvarın 27-də bu təşkilatın parlament Asanbleyası sədrinin müavini və büro üzvü seçilmişdir.

Azərbaycan nümayəndə heyəti Ermənistanın təcavüzkar və işğalçı siyasətini ifşa etmək üçün Avropa Şurası tribunasından məharətlə istifadə etmişdir.

2001-ci ilin aprelində Azərbaycanın nümayəndə heyəti Avropa Şurası tribunasından Ermənistanın Azərbaycanlılara qarşı soyqrımı siyasəti yeritdiyini, işğal olunmuş Azərbaycan ərazisində, o cümlədən Dağlıq Qarabağda narkotik maddələr istehsal və ixrac etdiyini, bu vasitə ilə ordu saxladığını, terrorçu dəstələr təşkil edib onlara təlim keçdiklərini əsaslı şəkildə bütün dünyaya bəyan etmişdir. Avropa Şurasının 2001-ci il sentyabr iclasında isə erməni terrorizmi, terrorçu erməni, ASALA təşkilatının azərbaycanlılara qarşı törədilmiş terror və soyqrımı aktlarında iştirakı qeyd edilmişdir. Göstərilmişdi ki, həmin təşkilatın iştirakı ilə Azərbaycanda iki min nəfərin ölümünə, on minlərlə adamın yaralanmasına səbəb olan 32 terror aktı törədilmişdir. (bax İ. Məmmədov Azərbaycan tarixi, Bakı 2009, səh. 321).

2002-ci ilin sentyabrında Avropa Şurasının parlamentində müzakirə olunan Azərbaycan haqqında məruzədə ilk dəfə Azərbaycan torpaqlarının işğal olunduğu vurğulanmışdı.

Azərbaycan Respublikası Avropa birliyi (1998-ci ilin noyabrından Avropa ittifaqı) ilə də əlaqələr yaratmışdı. Avropa birliyi SSRİ çökdükdən sonra 1991-ci ilin dekabrın 31-də Azərbaycan Respublikasını rəsmən tanımışdır.

Azərbaycanla Avropa İttifaqı arasında başlanan tərəfdaşlıq və əməkdaşlıq sazişi 1999-cu ilin yanvarında rəsmən qüvvəyə minmişdir. Bundan sonra hətta Azərbaycana Avropa İttifaqı tərəfindən də yardım edilmişdir.

Azərbaycan Respublikası hələ 1949-cu ildən fəaliyyət göstərən NATO (Şimali Atlantika İttifaqı) ilə əlaqə yaratmışdı. O, 1992-ci ildə Əməkdaşlıq Şurasına qoyulmuşdur. 1994-cü ildə isə Azərbaycan Natonun Sülh naminə tərəfdaşlığı proqramını qəbul etmişdi, may ayında isə bu proqram çərçivə sənədinə imza da atmışdır. (bax. R.C. İmanov Qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması tarixindən, Bakı 2006, səh. 2008-2009).

Azərbaycan Respublikası uğursuz təşkilat olan MDB-nin üzvüdür.

O, bu təşkilata 1993-cü ilin sentyabrın 24-də daxil olmuşdur. Keçmiş SSRİ-ni bərpa etmək məqsədi ilə yaradılmış bu təşkilat daxilində hüquqlu əməkdaşlığı hələ də lazımi qaydada təmin edilməmişdir. Təşkilata üzv olan bəzi dövlətlərin (Ermənistan, Azərbaycan, Rusiya və Gürcüstan) arasında münaqişələr hələ də davam etməkdədir. Rusiyanın imperiya və ikili siyasəti onların sıx birliyinə və fəaliyyətlərinə imkan vermir.

Azərbaycan Respublikası 15-dən çox beynəlxalq, regional təşkilat və qurumların üzvüdür.

Artıq XXI əsrin əvvəlləri üçün Azərbaycan Respublikasını Dünyanın 150-ə qədər dövləti tanımışdı. O, 70-dən çox xarici ölkə ilə diplomatik əlaqə yaratmışdır.

Təkcə Bakı şəhərində 30-dan çox ölkənin səfirliyi fəaliyyət göstərir.

Azərbaycan Respublikasının isə 25-dən çox ölkədə səfirliyi baş konsulluğu və daimi nümayəndəliyi vardır.

Ulu öndərimizin xarici siyasət kursu onun varisi Prezident İlham Əliyev tərəfindən tükənməz fiziki qüvvə, yüksək yaradıcı təfəkkür və çevik diplomatik gedişlə layiqincə davam etdirilməkdədir. Son beş ildə Azərbaycan Respublikasının xarici və daxili siyasət sahələrində qazandığı uğurlar bunu bir daha təsdiq edir.

# *Azərbaycan tarixi kursu üzrə mühazirə və seminar mövzularının bölgüsü*

## Qiyabi şöbə

| № | Mövzular | Mühazirə | Seminar | Qeyd |
|---|---|---|---|---|
| 1. | Giriş. Azərbaycanda Gəmiçiliyin inkişafı və dənizçilik təhsilinin meydana gəlməsi | 2 | | |
| 2. | Azərbaycan ərazisində ibtidai icma quruluşu və qədim dövlətlər | 3 | 2 | |
| 3. | Azərbaycan III-XII əsrlərdə | 2 | 2 | |
| 4. | Azərbaycan XIII-XIV əsrlərdə | 2 | | |
| 5. | XV-XVIII əsrdərdə Azərbaycanda feodal dövlətlər | 3 | | |
| 6. | Azərbaycan XIX-XX yüzilliyin əvvəllərində | 3 | 2 | |
| 7. | XX əsrlərdə Azərbaycanın siyasi, sosial-iqtisadi həyatında və mədəni həyatında dəyişikliklər | 2 | 2 | |
| 8. | Azərbaycan II Dünya Müharibəsindən sonrakı illərdə (1945-1991) | 2 | | |
| 9. | Müstəqil Azərbaycan Respublikası | 2 | 2 | |
| 10. | Azərbaycan Respublikasının dövlət rəmzləri | 2 | | |
| 11. | Məstəqil Azərbaycan intibahının yeni mərhələsi | 1 | | |
| | **Cəmi** | 23 | 10 | |

# İstifadə edilən ədəbiyyat

1. Azərbaycan tarixi VII cilddə, VII cild, Bakı, 2003
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir, Bakı 1999
3. Həsənov Ə. Azərbaycan və ATƏT, Bakı 1997
4. XX əsr Azərbaycan tarixi, 2004.
5. Məmmədov İ., Məmmədov Ç. Siyasi tarix, Bakı 2006
6. İmanov R. Qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması tarixindən, Bakı 2006
7. Məmmədov İ., Məmmədov Ç. Azərbaycan tarixi, Bakı 2009
8. İmanov R.C. Azərbaycanın ərazi bütövlüyünə qəsd - Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti, Bakı 2005
9. R. Cəlil oğlu Ömrün Qarabağ səhifələri, Bakı 2010

# *İstifadə edilən əlavə ədəbiyyatın siyahısı*

1. Azərbaycanın Milli Ensiklopediyası, Bakı 2007
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı 2005
3. İ. Məmmədov Azərbaycan tarixi, Bakı 2005.
4. Azərbaycan tarixi VII cilddə, I-VII cildlər, 1998-2003
5. Z. Bünyadov Azərbaycan tarixi, Bakı 1994
6. İ. Əliyev Azərbaycan tarixi, Bakı 1997
7. M. İsmayılov Azərbaycan tarixi, Bakı 1997
8. S. Əlyarlı Azərbaycan tarixi, Bakı 1996
9. F. Qafarov Azərbaycan tarixi, 1920-1991. Bakı 1999
10. F. Qafarov Azərbaycan Respublikası, 1991-2001. Bakı 2001
11. S. Aşurbəyli Şirvanşahlar dövləti, Bakı, 1993
12. S. Qaşqay Manna çarlığı, Bakı 1993
13. F. Məmmədov Alban çarlığı, Bakı 1994
14. Ə. Cəfərov Azərbaycanın ilk sakinləri, Bakı 2004
15. M.Ə. Rəsulzadə Azərbaycan Cümhuriyyəti, Bakı 1993
16. Y. Mahmudov Tarix, Bakı 2007
17. İ. Məmmədov Siyasi tarix, Bakı 2007
18. Cənubi Azərbaycan tarixi oçerqləri, Bakı 1985
19. R.C. İmanov Qondarma Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması tarixindən, Bakı 2006

20. Q. Mədətov Azərbaycan Böyük Vətən Müharibəsi illərində, Bakı 1975
21. R.C. İmanov Azərbaycan və İran II Dünya Müharibəsindən sonrakı illər, Bakı 2000
22. T. Mustafazadə Ümumi tarix IV cild, Bakı 1998
23. İ. Məmmədov, Ç. Məmmədov Azərbaycan tarixi, Bakı 2009
24. R.C. İmanov Dünya və Vətən mədəniyyəti tarixindən səhifələr. Bakı 2007
25. H. Məmmədova Xocalı, Bakı 2003

R.Cəlil oğlu Ömrün Qarabağ səhifələri, Bakı 2009

# Mündəricat
## (Qiyabi şöbə üçün)

I. Mövzu: Azərbaycanda Gəmiçiliyin və Dənizçilik təhsilinin meydana gəlməsi və inkişafı.
II. Mövzu: Azərbaycan ərazisində ibtidai icma quruluşu və qədim dövlətlər.
III. Mövzu: Azərbaycan III-XII əsrlərdə.
IV. Mövzu: Azərbaycan XIII-XIV əsrlərdə.
V. Mövzu: XV - XVIII əsrlərdə Azərbaycan feodal dövlətləri.
VI. Mövzu: Azərbaycan XIX - XX yüzillyin əvvəllərində.
VII. Mövzu: XX əsrdə Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni həyatında dəyişikliklər.
VIII. Mövzu: Azərbaycan II Dünya Müharibəsindən sonrakı illərdə (1945-1990).
IX. Mövzu: Müstəqil Azərbaycan Respublikası.
X. Azərbaycan Respublikasının dövlət rəmzləri.
XI. Azərbaycan respublikası intibahının yeni mərhələsi.
XII. Azərbaycan tarixi üzrə mühazirə və seminarların mövzularının bölgüsü və ədəbiyyatın siyahısı.